DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev
www.scwra.gov.az
CƏMİYYƏT və DİN
TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
№ 07 (336) / İYUL 2019-CU İL



Mənim Prezident kimi təcrübəmdə bir çox hallarda xarici qonaqlarla təmaslar, Azərbaycana ilk dəfə gəlmiş qonaqlarla görüşlər əsnasında onlar tərəfindən bir təəccüb hissi duyulurdu: yəni, biz bilmirdik ki, Azərbaycan bu qədər inkişaf etmiş ölkədir. Biz bilmirdik ki, Azərbaycanda vəziyyət bu qədər yaxşıdır, şəhərlər bu qədər təmizdir, səliqəlidir, gözəldir. İctimai ovqat müsbətdir. Xalq iqtidarı dəstəkləyir. Yəni, nəyə görə bu təəccüb hissləri oyanırdı? Ona görə ki, bizə qarşı çoxşaxəli, məqsədyönlü və davamlı informasiya müharibəsi aparılırdı. Məqsəd Azərbaycanı ləkələmək, inkişafımıza zərbə vurmaq, cəmiyyətimizin ənənəvi dayaqlarını sarsıtmaqdır. Biz buna heç cür imkan verə bilmərik və imkan vermirik. Çünki biz müstəqillik yolu ilə gedirik. Bizim öz seçimimiz var. Biz güclü dövlət qururuq. O dövlət ki, milli-mənəvi dəyərlər üzərində qurulub. Ona görə hədəflərin biri də məhz bizim milli dəyərlərimizdir, ənənələrimizdir. Çalışırlar ki, onları sarsıdaraq ölkəmizin inkişafına zərbə vursunlar. Azərbaycan xalqı hər şeyi yaxşı bilir və bilməlidir ki, biz informasiya müharibəsi şəraitində yaşayırıq və buna hazır olmalıyıq. Biz bu müharibədə ancaq öz işimizlə, öz qətiyyətimizlə qalib gələ bilərik.

**Prezident İlham Əliyev**
28 May – Respublika Günü münasibətilə
keçirilən rəsmi qəbuldakı nitqindən
*Bakı, 27 may 2019-cu il*

# XV AVROPA GƏNCLƏR OLİMPİYA FESTİVALININ TƏNTƏNƏLİ BAĞLANIŞ MƏRASİMİ KEÇİRİLİB

Dünyada ən mötəbər idman turnirlərinin mahir təşkilatçısı kimi tanınan Azərbaycan daha bir mötəbər beynəlxalq idman tədbirinə - "EYOF Bakı 2019" XV Avropa Gənclər Olimpiya Festivalına yüksək səviyyədə ev sahibliyi edərək növbəti dəfə tarix yazdı. Son 7 gün ərzində dünya, o cümlədən Avropanın idman ictimaiyyətinin gözü Azərbaycanda idi. Bakı bu 7 gündə XV Avropa Gənclər Olimpiya Festivalına layiqincə ev sahibliyi etdi. Burada gördükləri yüksək təşkilatçılıq, xalqımızın səmimi qonaqpərvərliyi, mədəni dəyərləri minlərlə yeniyetmə idmançının, nümayəndə heyətlərinin üzvlərinin, yarışları televiziya ekranlarından izləyən milyonlarla tamaşaçının qəlbini riqqətə gətirdi. Festivalın yarışları, sözün həqiqi mənasında, əsl idman və həmrəylik bayramına çevrildi, maraqlı və parlaq qələbələrlə yadda qaldı. Bu mötəbər yarışda 10 qızıl, 7 gümüş və 6 bürünc medal qazanan Azərbaycan yığma komandası 48 ölkə arasında dördüncü oldu.

Festivalın "Baku Crystal Hall"da keçirilən təntənəli bağlanış mərasimində Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini, XV Avropa Gənclər Yay Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov, Avropa Olimpiya Komitələrinin (AOK) vitse-prezidenti Nils Nayqaard, növbəti festivala ev sahibliyi edəcək Slovakiyanın Banska Bıstritsa bölgəsinin meri Yan Nosko, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və digər şəxslər iştirak ediblər.

Bağlanış mərasiminin iştirakçıları arasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Azərbaycan Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev də olublar.

Avropa Gənclər Yay Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin (BOK) himayəsi altında keçirilir və 25 ildən artıq ənənəsi var. Bu festival 14-18 yaş arası gənc idmançılar üçün ilk çoxprofilli Avropa tədbiridir. Olimpiya bayrağı altında keçirilən festival Olimpiya ənənələri ilə zəngindir.

"Zirvələrə hazırıq" devizi altında keçirilən "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalının yarışları paytaxtın 12 idman obyektində yeddi gün davam edib. Festivalda 48 ölkədən 3900 atlet idmanın on növü – idman gimnastikası, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında 135 dəst medal uğrunda mübarizə aparıb.

Azərbaycan festivala 122 idmançı ilə qatılıb. Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil ediblər. Azərbaycan bu idman növlərinin hər biri üzrə 18 nəfərlə təmsil olunub. Bundan başqa, cüdo yarışlarında 12, bədii gimnastikada 4, velosiped idmanında 6, tennisdə 4, üzgüçülük yarışlarında 6 idmançımız mübarizəyə qoşulub. Komanda idman növlərində isə voleybol və basketbol yığmalarımızın hər birinin heyətinə 12 idmançı daxil edilib. Oğlanlardan və qızlardan ibarət həndbol komandalarımızda ümumilikdə 30 oyunçu yer alıb.

Festival günlərində idman obyektlərində 3500-dən çox könüllü fəaliyyət göstərib.

"Baku Crystal Hall"a toplaşmış tamaşaçılar və yüz minlərlə televiziya izləyiciləri təntənəli bağlanış mərasiminin unudulmaz anlarının şahidi oldular.

Bağlanış mərasimi Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Azərbaycan Respublikasının dövlət bayrağının, eləcə də AOK-un və BOK-un bayraqlarının dalğalandığı arenada bayraqlar paradına start verilib. İlk olaraq Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin – Yunanıstanın, sonra digər ölkələrin bayraqları əlifba sırası ilə arenaya gətirilib. Bayraq paradı ev sahibi Azərbaycanın bayrağının gətirilməsi ilə başa çatıb.

Daha sonra XV Avropa Gənclər Olimpiya Festivalının ən maraqlı anlarını əks etdirən film nümayiş etdirilib.

Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini, XV Avropa Gənclər Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov və AOK-un vitse-prezidenti Nils Nayqaard səhnəyə gəliblər.

"EYOF Bakı 2019"un Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov çıxış edərək deyib:

- Hörmətli Beynəlxalq və milli federasiyaların rəsmiləri.

Əziz gənc idmançılar.

Xanımlar və cənablar.

Yeddi gün ərzində yüksək əhval-ruhiyyə, gərgin mübarizə və dostluq şəraitində keçən XV Avropa Gənclər Olimpiya Festivalı bu gün başa çatır. Festivalın bağlanış mərasimindəki çıxışımda səmimi hisslərimi sizinlə bölüşmək istəyirəm. Ölkəmlə, ölkəmin rəhbərliyi, insanları ilə və bu yarışlarda fəal iştirak edən bütün gənc dostlar, sizinlə qürur duyuram. Mən qürur duyuram ki, biz bu festivalı ənənəvi olaraq yüksək səviyyədə təşkil etməklə Azərbaycanın idman ölkəsi olduğunu bir daha nümayiş etdirdik. Biz idmanı sevirik, çünki o, dünyada dostluq, sülh və sağlam həyat sürmək üçün ən təsirli və önəmli vasitədir.

Təşkilat Komitəsi və bütün Azərbaycan idmançıları adından festivala və ölkəmizdə idmanın inkişafına böyük dəstək verən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk.

Əziz gənclər, siz 10 idman növü üzrə 900-dən çox medal uğrunda mübarizə aparmaqla yanaşı, ən önəmlisi, Olimpiya hərəkatı ideyalarına sadiq qalaraq, birlik və dostluq nümayiş etdirdiniz. Ümumi nəticədə XV Avropa Gənclər Olimpiya Festivalının qalibi olmuş Rusiya komandasını, müvafiq olaraq ikinci və üçüncü yerləri tutmuş Böyük Britaniya və Türkiyə idmançılarını ürəkdən təbrik edirəm.

Xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycan idmançıları Gənclərin Avropa Olimpiya festivallarında iştirak tarixlərinin ən böyük uğurunu məhz Bakı şəhərində əldə etdilər. Onlar ümumi komanda hesabında dördüncü yerə çıxdılar, 10-u qızıl, 7-si gümüş və 6-sı bürünc olmaqla, 23 medal qazandılar. Bu nailiyyət münasibətilə Azərbaycan xalqını, idmançılarımızı və onların məşqçilərini səmimi qəlbdən təbrik edirəm.

Təbii ki, nəticələrindən asılı olmayaraq, festivalda iştirak etmiş bütün komandaları təbrik edirəm - bu cür yarışlarda iştirakın özü də böyük bir qələbədir.

Ümidvaram ki, əziz idmançılar, Azərbaycanda keçirdiyiniz bir həftə sizlərin həyatında unudulmaz izlər buraxdı və bu duyğuları Azərbaycandan gedərkən özünüzlə aparacaq və Bakıda - gözəl paytaxtımızda keçirdiyiniz günləri bütün ömrünüz boyu xoş xatirələrlə yada salacaqsınız.

davamı səh. 2

# XV AVROPA GƏNCLƏR OLİMPİYA FESTİVALININ TƏNTƏNƏLİ BAĞLANIŞ MƏRASİMİ KEÇİRİLİB

əvvəli səh.1

Mən Avropa Gənclər Olimpiya Festivalında iştirak etmiş bütün məşqçi və hakimlərə, yardımçı heyət nümayəndələrinə, idman arenalarına gələn azarkeşlərə də təşəkkür edirəm.

Canlı izlədiyimiz festival gənclərin böyük bir qismi üçün ilk mühüm sınaq oldu. Əminəm ki, sıralarınızdan gələcəyin Olimpiya, dünya və Avropa çempionları yetişəcək və biz də böyük fəxrlə xatırlayacağıq ki, bu nailiyyətlərin əsası məhz Bakı şəhərində qoyulub.

XV Avropa Gənclər Olimpiya Festivalı başa çatdı. 2021-ci ildə növbəti - XVI Festival Slovakiyanın Banska Bistritsa şəhərində keçiriləcək. Əminik ki, bu yarışlar da yüksək səviyyədə təşkil olunacaq.

Əziz dostlar, əziz gənclər, Azərbaycanda keçiriləcək gələcək idman yarışlarında yenidən görüşmək ümidi ilə sağollaşır və bir daha hər birinizə Bakıdakı festivalın iştirakçısı olduğunuza görə səmimi qəlbdən "Çox sağ olun!" deyirik.

* * *

Sonra AOK-un vitse-prezidenti Nils Nayqaard çıxış edərək deyib:

- Hörmətli Azərbaycan Respublikası Baş nazirinin birinci müavini cənab Yaqub Eyyubov.

Əziz idmançılar.

Əziz dostlar və Avropanın Olimpiya hərəkatının qonaqları.

İcazə verin, Avropanın bütün Milli Olimpiya Komitələrinin ən səmimi salamlarını çatdırım.

Burada, Bakıda biz XV Yay Avropa Gənclər Olimpiya Festivalının maraqlı həftəsini keçirdik.

Bu, Avropa idmanının, qitəmizin ən yaxşı gənc idmançılarının əsl bayramı oldu. Burada yarışan atletləri seyr etdikdən sonra əminliklə demək olar ki, Avropanın idman aləmində aparıcı mövqeyi yaxın zamanlarda dəyişməz olaraq qalacaq.

Bütün idmançıları təbrik edirik. Ümidvaram ki, burada əldə etdiyiniz təcrübə sizi gələcəkdə həm idman, həm də digər sahələrdə daha böyük zirvələri fəth etməyə ilhamlandıracaq.

Siz dostluq, kamillik və hörmət kimi Olimpiya dəyərlərini təcəssüm etdirdiniz və biz bütün həftə izlədiyimiz çıxışlarınızdan fərəhləndik.

Azərbaycanlı dostlarımıza və təşkilatçılara minnətdarıq. Çünki onlar bir daha bütün dünyaya nümayiş etdirdilər ki, çox idman növlü mükəmməl yarışları təşkil etməyə qadirdirlər.

Öz təbəssümü və nəzakətli davranışı ilə festivalın ərsəyə gəlməsində yardımçı olmuş üç min beş yüz könüllüyə xüsusi minnətdarlığımızı bildiririk.

Avropa Gənclər Olimpiya Festivalı gənclərin bayramıdır və biz şadıq ki, həmin Oyunlarda bu qədər sayda gənc iştirak etdi.

Yerli təşkilatçılar gənclərlə çox peşəkar iş apardılar, o cümlədən Bakının 49 məktəbi ilə onların Avropadakı həmkarları arasında qardaşlaşma tellərini mümkün edən Olimpiya Mədəniyyəti və Təhsili Proqramını həyata keçirdilər.

Tələbələr yerli mədəniyyət, tarix, incəsənət və idmanla bağlı fikirlərini bir-biri ilə bölüşdülər, həmçinin Olimpiya dəyərləri və prinsipləri ilə tanış oldular.

Onların keçdikləri təlimlər və gördükləri işlər Atletlər kəndində Olimpiya Mədəniyyəti və İdmanı Pavilyonunda nümayiş olundu. Gənc idmançılar, komanda üzvləri və digər qonaqlar orada bütün iştirakçı Avropa ölkələri ilə tanış oldular və Olimpiya ruhunu duydular.

Avropa gənclərini bir araya gətirən bu Oyunlardan əldə edilmiş nəticələr daim yaddaşlarda qalacaq.

İdman bir daha sübut etdi ki, o, fərqli mənşəyə, inanclara malik olan insanları dinc yarış şəraitində birləşdirməkdə böyük gücə malikdir.



Hər zaman ən xoş xatirələrlə yada salacağımız Avropa idmanının və gənclərin unudulmaz bir həftəsinə görə sağ ol Bakı, sağ ol Azərbaycan!

İndi isə, mən XV Avropa Gənclər Olimpiya Festivalını bağlı elan edirəm.

* * *

Daha sonra Olimpiya himninin sədaları altında AOK-un və BOK-un bayraqları endirilib. Festivalın çempionu olan Azərbaycan idmançıları – Xasay Həsənli, Həsrət Cəfərov, Elmir Əliyev, Fərid Sadıxlı, Qurban Qurbanov və Turan Bayramov BOK-un bayrağını təntənəli şəkildə səhnədən çıxarıblar.

AOK-un bayrağı isə Təşkilat Komitəsinin sədri Yaqub Eyyubova təqdim olunub. Yaqub Eyyubov bayrağı rəmzi olaraq bir neçə dəfə dalğalandırdıqdan sonra AOK-un vitse-prezidenti Nils Nayqaarda təqdim edib. AOK-un vitse-prezidenti isə bayrağı növbəti – XVI Avropa Gənclər Olimpiya Festivalına ev sahibliyi edəcək Slovakiyanın Banska Bistritsa bölgəsinin meri Yan Noskoya verib.

Slovakiyanın dövlət himninin sədaları altında bu ölkənin bayrağı arenada qaldırılıb.

Slovakiyanın Banska Bistritsa bölgəsinin meri Yan NOSKO mərasimdə çıxış edərək deyib:

- Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov.

Avropa Olimpiya Komitələrinin vitse-prezidenti Nils Nayqaard.

Əziz idmançılar, əziz qonaqlar.

Yaxşı bir ideyam var. Mən sizi öz cazibəsi ilə seçilən bir məkana dəvət etmək istəyirəm. Baxmayaraq, o, kiçik bir yerdir, lakin orada böyük potensial gizlənir. Mən sizi elə bir ölkəyə dəvət etmək istəyirəm ki, oranın əhalisi Nyu-York şəhərinin əhalisindən azdır. Lakin həmin ölkə pop-artın banisinin, paraşütü və ya uçan maşını ixtira edənlərin vətənidir. Peter Saqan və ya Zdeno Kara kimi idmançılar orada dünyaya göz açıblar. Yaxşı bir ideyam var. Mən sizi öz adımdan məhəbbəti ehtiva edən ölkəyə dəvət edirəm. Bir halda ki, məhəbbət ürəkdə doğulursa, sizi bu ölkənin qəlbinə dəvət edirəm. Bilirsiniz niyə? Çünki şəhər Slovakiyanın tam mərkəzində yerləşir və o, hər yerə yaxındır. Çünki o, Olimpiya çempionlarının və dünya şöhrətli idmançıların şəhəridir.

Futbolçu Marek Hamşik, biatlonist Anastasiya Kuzmina və idman yerişi ustası Matej Tot kimi idman ulduzları Banska Bistritsa şəhərinin yetirmələridir. Sizin hamınızı, gələcək idman ulduzlarını 2021-ci ildə Banska Bistritsaya dəvət edirəm. Əminəm ki, siz məmnun qalacaqsınız. Bizim gözəl şəhərimiz dağların qoynunda yerləşir və bütün slovak şəhərləri ilə müqayisədə ən gözəl meydana və şəhər mərkəzinə malikdir.

2021-ci ildə Avropanın mərkəzinə gəlin. Hamımız sizi Slovakiyada, Banska Bistritsada səbirsizliklə gözləyirik. Biz 2017-ci ildə Avropanın idman şəhəri adını fərəh hissi ilə daşıdıq və 2021-ci ildə biz Avropa Gənclər Olimpiya Festivalının məşəlini fərəhlə daşıyacağıq. Hamınız dəvətlisiniz! Çox sağ olun.

* * *

Bağlanış mərasimində XVI festivala ev sahibliyi edəcək Slovakiya haqqında film nümayiş olunub.

Daha sonra yeddigünlük idman bayramının başa çatmasının rəmzi olaraq festivalın məşəli gimnastların ifasında maraqlı kompozisiyanın müşayiəti ilə söndürülüb.

Məşəlin söndürülməsindən sonra bağlanış mərasimi maraqlı konsert proqramı ilə davam edib.

Qeyd edək ki, festivalda 23 medal – 10 qızıl, 7 gümüş və 6 bürünc qazanan Azərbaycan millisi komanda hesabında dördüncü pillədə qərarlaşıb. Medallardan 16-sını güləşçilərimiz qazanıblar. Pəhləvanlarımız 8 qızıl, 5 gümüş və 3 bürünc medala sahib olublar. Medalların sayına görə komandamızda ikinci yerdə cüdoçular qərarlaşıblar. Cüdoçular ölkəmizin aktivinə 2 qızıl, 1 gümüş və 3 bürünc medal yazdırıblar. Komandamız idman gimnastikası yarışında isə 1 gümüş medala sahib olub.

"EYOF Bakı 2019" XV Avropa Gənclər Olimpiya Festivalında yeddigünlük idman mübarizəsinin yekununda 38 ölkənin təmsilçiləri medal qazanıblar. Siyahıya aktivində 66 (28 qızıl, 17 gümüş və 21 bürünc) medal olan Rusiya komandası başçılıq edir. Böyük Britaniya idmançıları 25 medalla (11 qızıl, 12 gümüş, 2 bürünc) ikinci, Türkiyə komandası isə 27 medalla (11 qızıl, 6 gümüş və 10 bürünc) üçüncü sırada qərarlaşıblar. Sonrakı yerləri müvafiq ardıcıllıqla İtaliya, Ukrayna, İspaniya, Fransa, Polşa, Belarus, Rumıniya, Almaniya, Xorvatiya, İsveç, Estoniya, Hollandiya, Finlandiya, Çexiya, İrlandiya, Norveç, Gürcüstan, Danimarka, Bolqarıstan, Kipr, İsrail, Kosovo, Avstriya, Macarıstan, Belçika, İsveçrə, Moldova, Yunanıstan, Serbiya, Portuqaliya, Litva, Latviya, Slovakiya və Sloveniya idmançıları tutublar.

Bununla da Azərbaycan daha bir mötəbər turnirə yüksək səviyyədə ev sahibliyi edib. Bu mötəbər idman turnirinin uğurlu təşkilini təmin edən mühüm amillərdən biri son illər Azərbaycanın beynəlxalq idman tədbirlərinin keçirilməsində qazandığı zəngin təcrübədir. 2015-ci ildə tarixdə ilk Avropa Oyunları, 2016-cı ildə 42-ci Ümumdünya Şahmat Olimpiadası, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, son bir neçə ildə Formula-1 Qran-Prisi, bu ilin mayında UEFA Avropa Liqasının final qarşılaşması kimi mötəbər yarışlara uğurla ev sahibliyi edən Azərbaycan XV Avropa Gənclər Olimpiya Festivalını da müvəffəqiyyətlə təşkil etməklə bir daha dünyanın diqqət mərkəzinə çevrildi.

# DÖVLƏT KOMİTƏSİNDƏ 2019-CU İLİN BİRİNCİ YARISININ YEKUNLARINA HƏSR OLUNMUŞ KOLLEGİYA İCLASI OLUB

İyulun 26-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 2019-cu ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.

İclasda kollegiya üzvləri ilə yanaşı, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev, həmçinin Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı giriş sözü ilə çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın regionda iqtisadi gücü ilə fərqləndiyi kimi, dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində də ciddi uğurlara imza atdığını deyib. Komitə sədri qeyd edib ki, bu gün dövlət və dini icmalar arasında münasibətlər yüksək səviyyədə qurulur, qarşılıqlı əlaqələr qanun çərçivəsində inkişaf etdirilir, maarifləndirmə işi geniş miqyasda aparılır, müxtəlif dini konfessiyalar arasında tolerantlıq münasibətləri davam etdirilir. Bundan başqa, dövlət dini icmalara göstərdiyi qayğını gündən-günə artırır.



Hesabat dövrü ərzində dini sahədə bir sıra məsələlərin müsbət həllinə nail olunduğunu bildirən Dövlət Komitəsinin sədri dövlət-din münasibətlərinin inkişaf etdirilməsi, cəmiyyətin maarifləndirilməsi, Azərbaycanın tolerantlıq ənənələrinin təbliği və təşviqi, dini durumun öyrənilməsi, dini icmaların fəaliyyətinin dəstəklənməsi, radikal cərəyan və təriqətlərin qanunazidd əməllərinin aşkarlanması ilə bağlı tədbirlər görüldüyünü deyib. Dindən sui-istifadə hallarının qarşısının alınması, din adı ilə milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılması istiqamətində qabaqlayıcı, profilaktik və inzibati tədbirlər həyata keçirilib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 2019-cu ilin yanvar-iyun aylarındakı fəaliyyəti və qarşıda duran vəzifələr barədə məlumat verərək bildirib ki, 2019-cu ilin ilk 6 ayı ərzində dini icmaların dövlət qeydiyyatına alınması prosesi davam etdiriləræk ümumi sayı 940-a çatıb. İcmalardan 907-i İslam, 33-ü qeyri-islam təmayüllüdür. Hesabat dövründə ümumilikdə 32 dini icma (31-i İslam, 1-i qeyri-islam təmayüllü) dövlət qeydiyyatına alınıb.

Komitə sədrinin müavini vurğulayıb ki, Dövlət Komitəsi tərəfindən hesabat dövründə radikal, qeyri-ənənəvi və milli kimliyimizə zidd təbliğat aparan dini təriqətlərin təlimlərini yaymaq, tərəfdarlarını artırmaq, dini fəaliyyət sahəsində cərəyan edən proseslərə təsir etmək məqsədilə dini ədəbiyyatın ölkəyə idxalına, çapına və yayılmasına xüsusi önəm verdiklərini nəzərə alaraq, bu istiqamətdə qabaqlayıcı tədbirlər həyata keçirilib, ölkədə dini ayrı-seçkilik və qarşıdurma meyillərinin yayılmasına rəvac verilməməsi, dini dözümlülük mühitinə mənfi təsir göstərə biləcək ədavəti, nifrəti, ekstremizmi və radikallığı təbliğ edən dini təyinatlı ədəbiyyatın xaricdən ölkəyə gətirilməsi və nəşrinin qarşısının alınması məqsədilə müvafiq işlər görülüb və ümumilikdə idxalla bağlı 2019-cu ilin yanvar-iyun ayları ərzində Dövlət Komitəsinə daxil olmuş müraciətlər əsasında 1452 adda dini məzmunlu ədəbiyyata baxılaraq, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 19 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısı alınıb, ölkədə nəşr olunmaq məqsədilə təqdim edilmiş 104 adda dini ədəbiyyata baxılaraq, onlardan 6-sının çapı məqsədəuyğun sayılmayıb.

Cari ilin müvafiq dövrü ərzində Dövlət Komitəsi tərəfindən ölkədəki dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, eyni zamanda, Azərbaycan vətəndaşlarının, xüsusilə gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması məqsədilə ayrıca və digər qurumlarla birgə ümumilikdə 250-ə yaxın maarifləndirici tədbir həyata keçirilib. 20 mindən artıq insanın iştirak etdiyi bu tədbirlərin təşkilində mərkəzi və yerli icra hakimiyyəti orqanları, Silahlı Qüvvələr, eləcə də hüquq mühafizə orqanları, təhsil müəssisələri, gənclər təşkilatları, dini qurumlar və QHT-lərlə yaxından əməkdaşlıq edilib. Qeyd olunan qurumlarla yanaşı, Dövlət Komitəsi ötən illərin təcrübəsinin davamı olaraq, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, QMİ, Yeni Azərbaycan Partiyası (YAP), YAP Gənclər Birliyi ilə əməkdaşlığı davam etdirib.

Ramazan ayının yekunlarına dair hesabatla çıxış edən Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə Ramazan ayı ilə bağlı təşkil edilən tədbirlərdən, Komitənin keçirdiyi monitorinqlərdən danışıb. O bildirib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən hər il olduğu kimi, bu il də Ramazan ayı boyunca respublikada dini durum nəzarətdə saxlanılıb, məscid və ziyarətgahlarda mütəmadi monitorinqlər keçirilib, eləcə də dini maarifləndirmə sahəsində silsilə görüş və konfranslar təşkil edilib. Ramazan ayı ərzində Dövlət Komitəsinin Mərkəzi Aparatına yerlərdən daxil olmuş məlumatlar ümumiləşdirilərək təhlil olunub, respublikada ümumi dini durumun qiymətləndirilməsi aparılıb. C.Əlifzadə bildirib ki, ümumən Ramazan ayı yüksək səviyyədə keçib, ay boyu müvafiq tədbirlərin təşkili üçün dini icmalara dövlət tərəfindən lazımi qayğı və dəstək göstərilib.

Daha sonra Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov İnstitutun 2019-cu ilin birinci yarımili üzrə fəaliyyəti barədə məruzə ilə çıxış edib. O bildirib ki, hesabat dövrü ərzində müvafiq iş planına əsasən tədrisin təşkili, elmi və dövri nəşrlər, elmi konfrans, simpozium və dəyirmi masalar, respublika əhəmiyyətli mühüm günlərə dair tədbirlər, maarifləndirmə işi, mətbuatla əlaqələr kimi bir çox sahəni əhatə edən işlər görülüb. O bildirib ki, Azərbaycan İlahiyyat İnstitutu 2018/2019-cu tədris ilində fəaliyyətə başlayıb və ilk tələbə qəbulunu bu ildə həyata keçirib. Qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən ödənişsiz əsaslarla III qrup üzrə iki istiqamətdə - İslamşünaslıq və Dinşünaslıq ixtisasları üzrə həyata keçirilib və ötən tədris ilində dövlət sifarişi əsasında qəbul üzrə ayrılmış plan yerləri tam dolub; İslamşünaslıq ixtisası üzrə 35, Dinşünaslıq ixtisası üzrə isə 25 nəfər olmaqla, ümumilikdə, 60 abituriyent tələbə sıralarına qəbul edilib. Hazırda İnstitutda ümumilikdə 109 tələbə təhsil alır. Bundan əlavə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15.01.2019-cu il tarixli 6 nömrəli qərarı ilə İnstituta 2020/2021-ci il üzrə doktoranturaya qəbul başlanılıb. Rektor həmçinin, hesabat dövrü ərzində İnstitutda ictimaiyyət nümayəndələri, elm xadimləri, tədqiqatçıların iştirakı ilə müxtəlif mövzularda elmi seminarlar, görüşlər, "dəyirmi masa"lar, konfransların təşkil olunduğunu, İnstitutun tanıdılması məqsədilə bölgələrə səfərlər təşkil edildiyini, tələbələrin təhsillə bərabər, sosialyönümlü layihələrə, maarifləndirmə tədbirlərinə də cəlb olunduqlarını deyib. C.Məmmədov vurğulayıb ki, bu ilin 6 ayı ərzində AİI öz fəaliyyətində xarici ölkələrin müvafiq ali təhsil müəssisələri ilə əlaqələrin gücləndirilməsi, ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılmasına xüsusi önəm verib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov Azərbaycanda mövcud olan ideal dövlət-din modelinin, eyni zamanda multikulturalizm siyasətinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayaraq, bu uzaqgörən siyasətin uğurla həyata keçirilməsinin Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin adı ilə bağlı olduğunu deyib. O, ölkədə dini durumla bağlı sabitliyin qorunub-saxlanılması və dini icmalar arasında mövcud tolerantlıq mühitinə kölgə salmağa çalışan mənfi təzahürlərin aradan qaldırılması istiqamətində Dövlət Komitəsi və onun tabeliyində fəaliyyət göstərən qurumlar tərəfindən görülən işləri, xüsusilə respublikanı əhatə edən genişmiqyaslı maarifçilik fəaliyyətini, eləcə də beynəlxalq səviyyəli tədbirlərin təşkilatçılığını yüksək qiymətləndirib.

E.Nəcəfov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və onun tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutu və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi arasında əməkdaşlığın genişləndirilməsinin müsbət nəticələrindən danışıb. Bildirib ki, 2019-2020-ci tədris ilindən etibarən ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin ixtisasları üçün məcburi tədris olunacaq "Multikulturalizmə giriş" fənni üzrə dərslik artıq yekunlaşmaq üzrədir. Dərslikdə multikulturalizmlə yanaşı, dini müxtəliflik məsələlərinə də geniş yer verilib. Bu dərslik məhz birgə sıx əməkdaşlığın nəticəsində ərsəyə gəlib və cari ilin sentyabr ayında fənni tədris edəcək müəllimlər üçün treninqin təşkili istiqamətində də BBMM ilə MDTF arasında birgə fəaliyyət həyata keçirilməkdədir.

E.Nəcəfov, eyni zamanda dini-mənəvi dəyərlərin qorunması və inkişafı məqsədilə təbliğatın gücləndirilməsi, dini icmaların fəaliyyətinin dəstəklənməsi, eləcə də bölgədə şöbələrin fəaliyyətinin genişləndirilməsi ilə bağlı bir sıra təkliflər irəli sürüb.

Hesabat yığıncağında Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə "Tərəqqi" və "Dövlət qulluğunda fərqlənməyə görə" medalları ilə təltif edilmiş Dövlət Komitəsinin 7 əməkdaşına medallar təqdim edilib.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ MÜBARİZ QURBANLI ABŞ-DA SƏFƏRDƏ OLUB

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyəti cari ilin 16-18 iyul tarixlərində Vaşinqton şəhərində keçirilən Din Azadlığının İrəlilədilməsi üzrə İkinci Nazirlər Konfransında iştirak etmək məqsədilə Amerika Birləşmiş Ştatlarında (ABŞ) səfərdə olub.

100-dən artıq dövlətin və 10-dan çox beynəlxalq təşkilatın rəsmiləri, habelə dini liderlər və vətəndaş cəmiyyəti qruplarının nümayəndələri qatıldığı konfransda ABŞ-ın vitse-prezidenti Mayk Pens, dövlət katibi Mayk Pompeo və Dövlət Departamentinin beynəlxalq din azadlıqları sahəsində xüsusi tapşırıqlar üzrə səfiri Səm Braunbək tədbirdə çıxış ediblər.



Azərbaycan nümayəndə heyətinin rəhbəri Mübariz Qurbanlı çıxışında ölkəmizin dünyəvi dövlət olduğunu, respublikamızdakı mövcud dövlət-din modelini, müxtəlif dini icmaların dostluq və mehribanlıq şəraitində birgə yaşadığını, cəmiyyətimizin tolerantlıq və multikulturalizm ənənələrinin bir nümunə olduğunu vurğulayıb. O, həmçinin qeyd edib ki, bu ənənələri daha da gücləndirmək üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl siyasət həyata keçirilir, dini icmaların inkişafı üçün onlara maddi yardımlar edilir. Ölkəmizin beynəlxalq aləmdə model olduğunu söyləyən M.Qurbanlı antisemitizmin olmadığı və İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü olan Azərbaycanın dinlər və sivilizasiyalar arasında dialoqu təşviq edən əsas dövlətlərdən biri olduğunu vurğulayıb. M.Qurbanlı, həmçinin cari ilin noyabrında Azərbaycanın Dünya dini liderlərinin II Bakı sammitini keçirəcəyini də xatırladıb.

Bəzi münaqişələrin sonradan dini dona salınmasının yolverilməz olduğunu söyləyən M.Qurbanlı belə addımların qınanılmasının və onların qarşısının alınmasının vacibliyini qeyd edib. O, dinlərin barışa və sülhə töhfə verməli olduğunu, bu xüsusda xristian və müsəlman dini liderləri Azərbaycan torpaqlarının işğalı ilə nəticələnən münaqişənin həllinə və bir milyonadək soydaşımızın öz doğma yurd-yuvasına qayıtmasına yardım etməyə çağırıb.

Qeyd edək ki, konfrans çərçivəsində Azərbaycan nümayəndə heyəti ABŞ rəsmiləri, ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyasının müvəkkilləri, Macarıstan Xarici İşlər və Ticarət naziri, habelə Qazaxıstan, Özbəkistan rəsmiləri, müxtəlif dini liderlər və tanınmış ictimai xadimlərlə görüşlər keçirib.

* * *

Səfər çərçivəsində Mübariz Qurbanlı iyulun 16-da ABŞ Dövlət Departamentinin beynəlxalq din azadlıqları sahəsində xüsusi tapşırıqlar üzrə səfiri Səm Braunbək ilə görüşüb.

M.Qurbanlı ölkəmiz barədə, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən müasir Azərbaycanın dövlət-din münasibətləri modeli, dini durum haqqında ətraflı məlumat verib, tolerantlığın və multikulturalizmin ölkəmizdə çox möhkəm təməl sütunlarının, zəngin tarixi ənənələrinin olduğunu və bu ənənələrin Azərbaycan dövləti tərəfindən inkişaf etdirildiyini qeyd edib. 35-i qeyri-islam olmaqla 942 dini icmanın dövlət qeydiyyatına alındığını vurğulayan Komitə sədri bildirib ki, Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq, dini konfessiyalar hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunub.

Görüş zamanı Azərbaycan həqiqətləri barədə də danışan Mübariz Qurbanlı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində işğal olunmuş torpaqlarımızda dini-tarixi abidələrin məhv edildiyini vurğulayıb.

Öz növbəsində S.Braunbək Azərbaycan haqqında məlumatlı olduğunu, ABŞ-ın Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu bildirib. Həmçinin Ulu Öndər Heydər Əliyevlə görüşlərini xatırladaraq bu təəssüratların onun yaddaşında silinməz izlər buraxdığını vurğulayıb. Eyni zamanda, ölkəmizdə müxtəlif dinlərin və xalqların dinc birgəyaşayışının, eləcə də uzun əsrlərdən bəri Azərbaycanda mövcud olan yəhudi icmasına göstərilən diqqət və qayğının yüksək səviyyədə olmasının məmnunluqla qarşılandığını qeyd edib.

Daha sonra tərəflər konfrans çərçivəsində imzalanacaq bəyanatlar barədə fikir mübadiləsi aparıblar.

Sonda Azərbaycandakı dini icmaların fəaliyyəti, ölkəmizin tolerantlıq və multikulturalizm ənənələrini əks etdirən və DQİDK-nın dəstəyi ilə nəşr edilmiş ədəbiyyatlar S.Braunbəkə təqdim edilib.

Qeyd edək ki, S.Braunbək 1996-2011-ci illərdə ABŞ senatoru, 2011-2018-ci illərdə isə ABŞ-ın Kanzas ştatının qubernatoru vəzifələrində çalışıb. O, 2018-ci ilin fevralında ABŞ Prezidenti D.Tramp tərəfindən Dövlət Departamentinin xüsusi tapşırıqlar üzrə səfiri vəzifəsinə təyin olunub.

Görüşdə Azərbaycan nümayəndə heyəti ilə birgə ölkəmizin ABŞ-dakı səfirliyinin əməkdaşları da iştirak ediblər.

* * *

Azərbaycan nümayəndə heyətinin rəhbəri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı iyulun 17-də amerikalı yazıçı Joel Rosenberqlə görüşüb.

Komitə sədri ölkəmiz, onun tarixi, dövlət-din münasibətləri haqqında ətraflı məlumat verib, tolerantlığın və multikulturalizmin Azərbaycanda çox möhkəm təməl sütunlarının, zəngin tarixi ənənələrinin olduğunu və bu ənənələrin dövlət tərəfindən inkişaf etdirildiyini qeyd edib. M.Qurbanlı ölkə əhalisinin 96 faizinin mənsub olduğu İslam dini ilə yanaşı, digər dinlərin nümayəndələrinin də qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşadıqlarını diqqətə çatdırıb. O bildirib ki, Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq dini konfessiyalar hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunur, məscidlərlə yanaşı kilsələr və sinaqoqlar da dövlət tərəfindən təmir və bərpa edilir, yeniləri inşa olunur. Hər il dövlət başçısı tərəfindən dini konfessiyaların fəaliyyətlərinin dəstəklənməsi məqsədilə maliyyə vəsaiti ayrılır.

Qeyd edək ki, J.Rosenberq "Nyu-York Tayms" nəşrinin bestseller hesab olunan, 5 milyon nüsxə ilə buraxılmış 13 roman və 5 publisistik əsərin müəllifi olmaqla yanaşı, həm də "Coşua" Xeyriyyə Fonduna rəhbərlik edir.

* * *

M.Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 17-də ABŞ-ın yəhudi icmasının nüfuzlu qurumlarından olan Simon Vizental Mərkəzinin təsisçisi Abraham Kuper və yevangelist icmasının nümayəndəsi Conni Murla da görüşüb. Azərbaycanın ABŞ-dakı səfirliyində keçirilmiş görüşdə ölkəmizin nümunəvi tolerantlıq siyasətindən bəhs edən Dövlət Komitəsinin sədri Azərbaycanda fəaliyyət göstərən dini konfessiyalar arasındakı tolerant münasibətin qarşılıqlı hörmətə və əməkdaşlığa, bir-birini dəstəkləmək prinsipinə əsaslandığını bildirib. O, Azərbaycan xalqının dözümlülük keyfiyyətinin, ölkədə hökm sürən tolerantlıq mühitinin qorunub-saxlanılması istiqamətində Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu din siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib. Dövlətin qarşısına qoyduğu məqsədlərdən birinin bu mühiti qoruyub-saxlamaq və təşviq etmək olduğunu deyən Mübariz Qurbanlı ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsinin Azərbaycanı dünyada multikulturalizmin mərkəzlərindən birinə çevirdiyini vurğulayıb.



Abraham Kuper dinlərə münasibətdə tolerantlığı, sünni və şiələr arasındakı vəhdəti ilə seçilən Azərbaycanın bu spesifik xüsusiyyətlərinə görə bütün dünyada fərqləndiyini vurğulayıb. O, bunun mütərrəqi dünyanın və beynəlxalq qurumların rəsmilərinin etiraf etdikləri fakt olduğunu deyib. Ölkəmizin tolerantlıq ənənələri və dinlərarası dialoqa dair nümunəvi modelə malik olduğunu diqqətə çatdıran A.Kuper yəhudi icmalarına göstərilən diqqət və qayğıya görə təşəkkürünü bildirib.

Yevangelist icmasının nümayəndəsi Conni Mur Azərbaycanın dünyaya birgəyaşayış nümunəsi nümayiş etdirdiyini və bu modelin kökündə dini azadlıqların təmin edilməsinin dayandığını vurğulayıb.

Hər iki görüşdə dünyada tolerantlığı, dinlərarası dialoqu dəstəkləyən və bu prosesdə aktiv iştirak edən Azərbaycanın hazırda dinlər və mədəniyyətlərarası dialoqun aparıcı qüvvəsinə çevrildiyini, bu istiqamətdə müxtəlif konfrans və forumlara ev sahibliyi etdiyini diqqətə çatdıran M.Qurbanlı cari ilin noyabr ayında Bakıda keçirilməsi nəzərdə tutulan "Dünya dini liderlərinin II Bakı sammiti", o cümlədən Bakı şəhəri "Şərqdə Ulduz" Xristian və Bakı şəhəri "Yevangelist Xristian Baptistlərin Kilsəsi" dini icmalarının bu günlərdə DQİDK-da yenidən qeydiyyatdan keçmələri və onlara şəhadətnamələr təqdim edilməsi, eləcə də Azərbaycan həqiqətləri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, işğal olunmuş torpaqlarımızda dini-tarixi abidələrin məhv edilməsi barədə məlumatlar verib.

Din Azadlığının İrəlilədilməsi üzrə Nazirlər Konfransının gedişi ilə bağlı qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsinin aparıldığı görüşlərin sonunda qonaqlara DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, eləcə də işğal olunmuş ərazilərimizdə vandalizm hərəkətlərinə məruz qalan tarixi-dini abidələrdən bəhs edən kitablar təqdim edilib.

# BAKIDA "İSLAM SİVİLİZASİYASI QAFQAZDA" II BEYNƏLXALQ SİMPOZİUMU KEÇİRİLİB




Azərbaycan İlahiyyat İnstitutu, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi və AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun təşkilatçılığı ilə iyulun 11-12-də Bakıda "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpozium keçirilib. Simpozium iştirakçıları Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

Tədbir iştirakçıları əvvəlcə Azərbaycanın tarixi-dini abidələri haqqında fotosərgi ilə tanış olublar.

Simpoziumun açılış mərasimində Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciətini oxuyub.

Tədbirdə açılış nitqi ilə çıxış edən AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov İslamın Qafqaz xalqlarının həyatında tutduğu əhəmiyyətli mövqeyə, həmçinin qafqazlı alim və mütəfəkkirlərin İslam sivilizasiyasına bəxş etdikləri töhfələrə toxunub. O, İslama dərindən bələd olan ümummilli lider Heydər Əliyevin birbaşa təşəbbüsü ilə 1998-ci il dekabrın 9-11-də Bakıda "İslam Sivilizasiyası Qafqazda" I Beynəlxalq Simpoziumunun keçirildiyini nəzərə çatdırıb.

AİI-nin rektoru daha sonra qeyd edib ki, təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dini dəyərlərə hörmət və qayğını, həmçinin dinlərarası tolerantlıq və multikultural ənənələrin təbliğinə əsaslanan bu nəcib siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir.

Ceyhun Məmmədov Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm ideyalarını təbliğ və tətbiq edən nümunəvi bir ölkə kimi tanındığını vurğulayıb. Bildirib ki, bu ideyaların təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətləri xüsusi olaraq vurğulanmalıdır.

Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin olduğunu bildirən Ceyhun Məmmədov ölkəmizdə çox sayda məscid, kilsə və sinaqoqun dövlət vəsaiti hesabına tikilib, həmçinin təmir edildiyini diqqətə çatdırıb: "Qafqazın ən böyük məscidi olan "Heydər Məscidi"nin inşa edilib inanclı insanların istifadəsinə verilməsi, din sahəsində peşəkar kadrların hazırlanması məqsədilə Azərbaycan İlahiyyat İnstitutunun yaradılması, dini-mənəvi sferaya dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədilə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması bunun ən bariz nümunələrindəndir".

Ceyhun Məmmədov nitqində İslam sivilizasiyasının inkişafında qafqazlı, xüsusən də azərbaycanlı alimlərin özünəməxsus yerini vurğulayaraq, məşhur İslam alimləri haqqında bəhs edib.

On iki ölkədən alim və tədqiqatçıların iştirak etdiyi Simpoziumun Qafqazda İslam sivilizasiyasının tədqiqinə töhfə verəcəyini vurğulayan AİI-nin rektoru tədbirə uğurlar arzulayıb.

İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin Baş direktoru Halit Eren qloballaşma dövründə ksenofobiyanın mədəniyyətlər və dinlər arasında dialoqun inkişafına ciddi təhdid olduğunu vurğulayaraq bildirib ki, bu meyil dünyada sülhün və sabitliyin pozulmasında maraqlı olan radikal, terrorçu qüvvələr tərəfindən dəstəklənir. Bu təhdidin qarşısını almaq üçün tolerantlığın, dialoqun, əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi böyük əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycanın rolu xüsusi vurğulanmalıdır. Azərbaycan İslam dünyasının bir parçası olduğundan, onun mədəniyyətində ərəb, İslam ünsürləri daha gözəçarpandır. Ona görə də İslam sivilizasiyasının Qafqazda yayılması, ilk növbədə, Azərbaycanla bağlı olduğundan, belə bir tədbirin burada reallaşması çox məqsədəuyğundur.

Halit Eren "İslam sivilizasiyası Qafqazda" mövzusunda ikinci dəfə keçirilən Beynəlxalq Simpoziumun təşkilatçısı olmaqdan xüsusi qürur duyduğunu nəzərə çatdırıb.

Milli Məclisin deputatı, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun keçirilməsini əlamətdar hadisə adlandırıb. Qeyd edib ki, İslam dini Azərbaycanda yayıldığı vaxtdan dərin kök salıb, insanların davranışına, düşüncəsinə, mənəviyyat və mədəniyyətinə müəyyənedici təsir göstərib.

Qafqazın nadir bölgə olduğunu vurğulayan Gövhər Baxşəliyeva bildirib ki, bu region öz təbiətinə, coğrafi mövqeyinə və qədim zamanlardan məskunlaşmış, minillərboyu yaşamış insanların xüsusiyyətinə görə xarakterizə oluna bilər. Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edildiyini xatırladan akademik Gövhər Baxşəliyeva dahi şairin irsinin öyrənilməsində İslam dinini bilməyin vacib olduğunu vurğulayıb. Simpoziumun mövzusunun aktual olduğunu deyən akademik burada dinlənilən məruzələrin və aparılacaq müzakirələrin İslam sivilizasiyasının tədqiqinə töhfə verəcəyinə əmin olduğunu söyləyib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İslam sivilizasiyasının Qafqaz xalqlarına bəxş etdiyi dəyərli töhfələri xüsusi vurğulayıb. Qeyd edib ki, Qafqaz xalqlarının, demək olar, əksəriyyəti İslam dininə ibadət edir. İslam Qafqaz xalqlarına səadət, xoşbəxtlik, inkişaf, islami dəyərlər bəxş edib. İslam dini-mənəvi dəyərləri Qafqaz xalqlarının həyatında da mühüm rol oynayır.

Mübariz Qurbanlı bildirib ki, ötən əsrin 90-cı illərində Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi vaxtda respublikamızda insan hüquq və azadlıqlarının təmin edilməsində, xalqımızın milli-mənəvi dəyərlərinin, dinlərarası dialoqun və dini tolerantlıq ənənələrinin qorunub inkişaf etdirilməsində mühüm addımlar atılıb, dini etiqad azadlığı tam şəkildə təmin edilib. Ulu Öndərin dövlətçilik prinsiplərini uğurla davam etdirən Prezident İlham Əliyev sabitliyə və tolerantlığa əsaslanan dövlət-din münasibətlərinin möhkəmləndirilməsi üçün əvəzolunmaz xidmətlər göstərməkdədir. Bu gün Azərbaycan İslam mədəni irsinin qorunub saxlanmasında və dünyaya olduğu kimi çatdırılmasında önəmli məkanlardan biri kimi tanınır. Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi sülhə, dostluğa, qarşılıqlı hörmətə, birgəyaşayışa çağırış və töhfədir. Azərbaycan nümunəsində dünyaya göstərildi ki, müxtəlif dinlərin, millətlərin, etnik qrupların nümayəndələri bir ölkədə rahat şəkildə yaşaya bilər. Paytaxt Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Beynəlxalq Humanitar Forum və digər bu kimi böyük beynəlxalq tədbirlərə ev sahibliyi edir.

Müasir dünyada irqçilik, ksenofobiya, islamofobiya təzahürlərinin getdikcə gücləndiyini deyən Mübariz Qurbanlı Azərbaycan dövlətinin çox məsuliyyətli missiyanı öz üzərinə götürərək, müsəlman ölkələri arasında həmrəyliyin bərqərar olması və dünyada İslam dəyərlərinin təbliği üçün ardıcıl iş apardığını bildirib. Xatırladıb ki, Azərbaycan Prezidentinin 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Sərəncamı bütün müsəlman aləminə və dünyaya xoşməramlı mesaj oldu.

Komitə sədri İslam dininin təkcə Azərbaycanda və Qafqazda deyil, bütün dünyada sülhün və əmin-amanlığın təmin olunmasında, qardaşlıq, dostluq münasibətlərinin qurulmasında əvəzsiz rol oynayacağına əminliyini bildirib, bu dinin doğru mənbələrdən araşdırılmasının, öyrənilməsinin və olduğu kimi təbliğ olunmasının zəruriliyini qeyd edib və Simpoziumun məhz buna xidmət etdiyini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayev vurğulayıb ki, ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədədir. Bu gün ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması və təbliği, dini radikalizmə qarşı mübarizə istiqamətində aparılan işlər, əldə olunan uğurlar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Qafqaz Müsəlmanları İdarəsinin birgə əməkdaşlığı və fəaliyyəti nəticəsində mümkün olub. Salman Musayev dini konfessiyalara ulu öndər Heydər Əliyevin diqqət və qayğısından danışaraq bildirib ki, müstəqil Azərbaycanda tolerantlığın və dinlərarası dialoqun əsasları məhz Ümummilli Lider tərəfindən müəyyənləşdirilib. Hazırda bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Bugünkü tədbir Heydər Əliyev ideyalarının davamı olaraq böyük önəm kəsb edir. Bu Simpozium ölkəmizin İslam tarixində və coğrafiyasında tutduğu önəmli məqama, İslamın Qafqaza, ətraf ərazilərə yayılmasında Azərbaycanın tarixi roluna verilən dəyərdir. Bu, həm də dövlətimizin İslam dəyərlərinə diqqət və qayğısının bariz nümunəsidir.

"29 Mayıs" Universiteti Himayəçilər Şurasının sədri, professor Tayyar Altıkulaç Azərbaycanda dini etiqad azadlığının təmin olunmasından, dövlətin dinə qayğısından məmnunluğunu ifadə edib. Bildirib ki, Azərbaycan tolerantlıq mühiti ilə nəinki Qafqaz regionunda, həm də dünyada seçilir. Azərbaycanda insanların milli-mənəvi dəyərlərə bağlılığı, dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulması təqdirəlayiqdir.

davamı səh. 6

# BAKIDA "İSLAM SİVİLİZASİYASI QAFQAZDA" II BEYNƏLXALQ SİMPOZİUMU KEÇİRİLİB

əvvəli səh. 5

"İzmir Katip Çelebi" Universitetinin rektoru, professor Saffet Köse qeyd edib ki, sovet dövründə Azərbaycanda ateizm dərsləri keçirilsə də, xalq öz dini inancını qoruyub və müstəqilliyinə qovuşduqdan sonra islami dəyərlərin təbliğini bərpa edib. Azərbaycanda din təhsili sahəsində mühüm addımlar atılıb. Azərbaycan İlahiyyat İnstitutunun yaradılması nəinki bu ölkə, bütövlükdə Qafqaz üçün çox önəmlidir. Azərbaycan tolerant ölkədir. Bu da onu Qafqazda multikultural dəyərlərin qorunduğu mərkəzə çevirir.

Rusiyanın Moskva İslam İnstitutunun rektoru, professor Damir Muxetdinov Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin və Rusiya Müftilər Şurasının sədri, Rusiya Federasiyası Prezidenti yanında Dini Birliklərlə Qarşılıqlı Fəaliyyət Şurasının üzvü müfti şeyx Ravil Qaynutdinin Simpozium iştirakçılarına ünvanlanmış məktubunu oxuyub.



Çıxış edənlər II Beynəlxalq Simpoziumun Qafqazda İslam sivilizasiyasının yayılması tarixinin elmi şəkildə öyrənilməsi və bu tarixin aktual problemlərinin obyektiv araşdırılması istiqamətində xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə çatdırıblar.

Qonaqlar, həmçinin Simpoziumun keçirilməsini aktual hesab edib, təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

Tədbirdə Azərbaycan İlahiyyat İnstitutunun tanıtım çarxı nümayiş etdirilib. Beynəlxalq Simpoziumun iştirakçıları xatirə şəkli çəkdiriblər.

Simpozium öz işini panellərlə davam etdirib. Panellərdə Türkiyə, Rusiya, Gürcüstan, İran, Ukrayna, Qazaxıstan, Özbəkistan, Moldova, ABŞ, Avstraliya, Misir, Səudiyyə Ərəbistanı və Qafqazda İslam sivilizasiyası mövzusu üzrə fəaliyyət göstərən alim, tədqiqatçı və ekspertlər çıxış ediblər.

İki gün davam edəcək Simpozium "İslam mədəniyyətinin Qafqazda dini və ictimai-mədəni həyata təsiri", "Qafqazda İslam elmlərinin inkişafı", "Qafqazda İslam memarlığı, incəsənəti və ədəbiyyatı", "Azərbaycanda tolerantlıq və multikultural ənənələrin möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu", "Qafqazda İslamın yayılması", "Qafqazda multikulturalizm", "İslam sivilizasiyası Qafqazda" araşdırma və təlim sahəsi kimi: metodoloji məsələlər, tarixi mənbələr, sənədlər və artefaktlar, mövzu üzrə akademik əməkdaşlıq", "Qafqazda din təhsilində məscid, mədrəsə və xanəgahların rolu", "Çar Rusiyasının Qafqazda İslam siyasəti", "Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafında rolu" adlı panelləri əhatə edir.

Konfransın materialları kitab şəklində çap olunacaq.

# "AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI VƏ İSLAM"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə iyulun 10-da "Azərbaycançılıq ideologiyası və İslam" mövzusunda konfrans keçirilib.

Tədbirin əvvəlində DQİDK-nın tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə hazırlanmış "Heydər Əliyev və Azərbaycançılıq" adlı sənədli film nümayiş edilib.



Konfransı giriş sözü ilə açan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarını birləşdirir və bu ideologiya Ümummilli Lider Heydər Əliyev tərəfindən dövlət ideologiyası kimi təsbit olunub. Komitə sədri deyib ki, iyulun 14-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 50-ci ildönümü tamam olur. Onun sözlərinə görə, Ulu Öndər xalqımız və dövlətimiz üçün misilsiz xidmətlər göstərib. Bu xidmətlərdən biri də azərbaycançılıq ideologiyasıdır. Komitə sədri onu da qeyd edib ki, azərbaycançılıq ideologiyasının formalaşması prosesində İslam dini mühüm rol oynayıb. İslami dəyərlər, ümumiyyətlə, İslam dini xalqımızın ideoloji xəttinə uyğundur. Azərbaycançılıq ideologiyası islami dəyərləri də özündə ehtiva edir. Ulu Öndər Heydər Əliyevin böyük müdriklik və uzaqgörənliklə əsasını qoyduğu siyasi kurs dövlət başçımız cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycançılıq ideologiyasının tərkib hissəsi olan multikulturalizm və tolerantlıq dövlət siyasətinə çevrilib.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu təqdim olunan sənədli filmə görə Dövlət Komitəsinə təşəkkürünü bildirib. Azərbaycançılığın tarixi köklərini, keçdiyi mərhələləri təhlil edən natiq qeyd edib ki, bu ideologiya Azərbaycanın milli neokonservatizmidir və sovet dövründə xalqın milli identifikasiyasını təşkil edib. Hikmət Babaoğlu söyləyib ki, bizim mentalitet milli psixologiya, milli mədəniyyət və milli mənəviyyatdır: "Mənəviyyatın içərisində əsas komponentlərdən biri də dindir. Özümüzü hər nə qədər müasir cəmiyyətin yetirməsi hesab etsək də, daxilimizdə fərd olaraq İslam dininin daşıyıcılarıyıq. Azərbaycançılıq ideologiyasında olan dözümlülük, tolerantlıq, sülh, birgəyaşayış, multikultural dəyərlər həm də İslam dinindən gəlir. Nəticə etibarilə İslam elmi, inkişafı təlqin edən dindir. Ona görə də, Azərbaycançılıq və İslam dedikdə, məsələnin bu kontekstdə qiymətləndirilməsi doğrudur".

Tədbirdə iştirak edən Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Hacı Salman Musayev bildirib ki, Heydər Əliyev hər şeydən əvvəl, milli-mənəvi dəyərlər sisteminin nə olduğunu və ona münasibətin necə formalaşmasını birmənalı şəkildə ictimai fikrin qarşısına qoyub, milli-mənəvi dəyərlər sisteminin təməlində dini dəyərlərin durduğunu bəyan edib. Ümummilli Liderin hakimiyyətə qayıdışı dönəmində dini-mənəvi dəyərlərə olan münasibətin müxtəlif aspektlərini araşdırmağın olduqca maraqlı və diqqətəlayiq olduğunu vurğulayan QMİ rəsmisi Heydər Əliyevin dinindən və məzhəbindən asılı olmayaraq bütün dini tədbirlərə, konfessiyaların xüsusi mərasimlərinə özəl diqqətlə yanaşmasından danışıb.

Daha sonra çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, fəlsəfə elmləri doktoru Könül Bünyadzadə, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov İslam dininin Azərbaycan cəmiyyətinə təsirlərindən, dinin təməl prinsiplərindən olan sülhün, birləşdirici funksiyanın və tolerantlığın milli təfəkkürdə oynadığı roldan danışıblar. Müzakirələrə qoşulan şərqşünas alim Nəriman Qasımoğlu və Konstitusiya Araşdırmalar Fondunun rəhbəri, DQİDK yanında İctimai Şuranın sədri Əlimməmməd Nuriyev azərbaycançılığın həm milli, həm də dini kimliyin təyinedicisi olmasından, tolerantlığın bu ideologiyada mühüm yer tutmasından söz açıblar.

# “AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİ (1918-2018)” YUBİLEY MEDALLARI TƏQDİM OLUNUB

Prezident İlham Əliyevin Sərəncamı ilə “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” yubiley medalı ilə təltif edilmiş Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə ali mükafat təqdim olunub.

Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yubiley medalını Qafqaz Müsəlmanları İdarəsində Şeyxülislam Allahşükür Paşazadəyə təqdim edib və xoş arzularını bildirib.

* * *



İyulun 12-də Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilmiş din xadimlərinə medalların Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) təqdimetmə mərasimi keçirilib.





Tədbirdə Rus Pravoslav Kilsəsinin Bakı-Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakı şəhəri Dağ yəhudilər dini icmasının sədri Milix Yevdayev, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili və Roma-Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Fekete iştirak ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” yubiley medalının əhəmiyyətindən danışıb. Komitə sədri qeyd edib ki, dövlət başçısının adıçəkilən medalın təsis edilməsi haqqında Sərəncamı Prezident İlham Əliyevin şanlı keçmişimizə, dövlətçilik tariximizə verdiyi yüksək dəyərin göstəricisidir.





Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılmasının tariximizin şərəfli səhifəsi olduğunu diqqətə çatdıran Dövlət Komitəsinin sədri bildirib ki, ölkə Prezidentinin imzaladığı müvafiq Sərəncama əsasən ötən il AXC-nin 100 illik yubileyi böyük təntənə ilə qeyd olundu. Mübariz Qurbanlı onu da vurğulayıb ki, Xalq Cümhuriyyəti 23 ay yaşamasına baxmayaraq, ölkəmizdə dini sahənin inkişafına da xüsusi qayğı ilə yanaşıb, xalqımızın vicdan azadlığının təmin edilməsi məqsədilə mütərəqqi addımlar atılıb.

Sonra medallar din xadimlərinə təqdim olunub.

Rus Pravoslav Kilsəsinin Bakı-Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakı şəhəri Dağ yəhudilər dini icmasının sədri Milix Yevdayev, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili və Roma-Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Fekete təltifə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# MÜBARİZ QURBANLI: “İLAHİYYAT İNSTİTUTUNDA DİGƏR DİNLƏR ÜZRƏ DƏ KADR HAZIRLIĞI NƏZƏRDƏ TUTULUR”

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının APA-ya müsahibəsi*

**– Öncə Azərbaycanda dini durumu qiymətləndirməyinizi istərdik...**

– Azərbaycanda möhkəm təməllərə söykənən ictimai-siyasi sabitlik mövcuddur. Təbii ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət, əldə edilən uğurlar bu sabitliyi şərtləndirir. Bununla yanaşı, ictimai-siyasi həyatdakı sabitlik din sahəsində də özünü göstərir. Bu baxımdan Azərbaycan ən sabit ölkələrdən sayıla bilər.

Ölkədə dövlət-din münasibətləri qanunlara, ən əsası, ölkə Konstitusiyasına əsaslanır. Azərbaycanda dini azadlıqlar, o cümlədən vicdan azadlığı təsbit edilib. Vətəndaşlar “Dini etiqad azadlığı haqqında” Qanunun onlara verdiyi azadlıqlardan sərbəst istifadə edə bilirlər. Bu isə ölkədə dini konfessiyalar arasında heç bir ziddiyyət və qarşıdurmanın meydana çıxmasına imkan vermir.

Ümumiyyətlə, Azərbaycanda dini nöqteyi-nəzərdən heç bir qarşıdurma ehtimalı gözlənilmir. Azərbaycan tolerantlıq nümunəsidir və ölkədə dini icmalar arasında münasibətlərdə tam sabitlik hökm sürür.

**– Bu gün müəyyən şəxslər, mərkəzlər tərəfindən Məşhədə, Kərbəlaya dini ziyarətlərin təşkili hallarına rast gəlinir. Ümumiyyətlə, dini ziyarətlərin təşkili sahəsində nəzarətin artırılmasına ehtiyac varmı?**

– Azərbaycan müsəlman ölkəsidir, İslam dini bizim xalqımızın qəlbindədir, həyatındadır. İslam sülh, qardaşlıq, bərabərlik dinidir. Bu din hər hansı radikal, ekstremist çağırışlara dəstək verməyən bir dindir. Azərbaycan vətəndaşları İslam dininin vacib buyurduğu şərtləri imkan daxilində yerinə yetirirlər. Biz dünyəvi dövlətik, dövlət insanların dini inanclarını və dini dəyərlərdən irəli gələn vəzifələrinin yerinə yetirilməsinə hər zaman dəstək verir. Məsələn, çoxlu sayda məscidin tikilməsi, yenidən qurulması, din sahəsində çalışan insanlara dövlətin maddi yardım göstərməsi bunun bariz sübutudur. Azərbaycan vətəndaşlarının öz inanclarına uyğun olaraq müqəddəs yerlərə ziyarətlərə getməsi təbii prosesdir və hökumət buna müdaxilə etmir. O ki qaldı bəzi şəxslərin yaradılmış şəraitdən sui-istifadə etmə hallarına, əvvəla onu deyim ki, Həcc ziyarəti Qafqaz Müsəlmanları İdarəsi tərəfindən həyata keçirilir.

Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında əldə olunmuş razılaşmaya əsasən Həcc və Ümrə ziyarətləri QMİ tərəfindən təşkil edilir, burada iştirak etmək üçün müraciət edən Azərbaycan vətəndaşlarının sənədlərini toplayır, kollektiv şəkildə onları Səudiyyə Ərəbistanın ölkəmizdəki səfirliyinə təqdim edir, viza, səfər zamanı qalmaları, təhlükəsizliyi və s. məsələləri həll edir. Əgər başqa bir qurum Qafqaz Müsəlmanları İdarəsindən kənarda bununla məşğul olursa, əlbəttə, bu halda əldə olunmuş razılaşmanı pozmuş olur. İslama aid olan digər ziyarət yerlərinə gəldikdə isə onu deyə bilərəm ki, qanunvericilikdə belə ziyarətlərin təşkili, tənzimlənməsi və ya nəzarət edilməsi ilə bağlı müddəa əksini tapmayıb.

davamı səh. 8

# MÜBARİZ QURBANLI: "İLAHİYYAT İNSTİTUTUNDA DİGƏR DİNLƏR ÜZRƏ DƏ KADR HAZIRLIĞI NƏZƏRDƏ TUTULUR"

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının APA-ya müsahibəsi*

əvvəli səh. 7

Həmçinin həmin ziyarətgahların yerləşdiyi ölkələrlə heç bir müqavilə imzalanmayıb. Amma nəzərdə tutulur ki, İslama aid olan digər müqəddəs yerlərə ziyarətlər də kollektiv şəkildə, məhz Həcc ziyarətində olduğu kimi, QMİ-nin himayəsi altında həyata keçirilsin.

Biz praktikada görürük ki, bəzən bu yerlərə ziyarətləri hansısa şirkət və ya turist qrupu təşkil edir. Həmin adamlar da orada problemlərlə üzləşir, bəzən geriyə qayıda bilmir, orada təhlükəsizlik və nəqliyyatla bağlı tədbirlər kifayət qədər yüksək səviyyədə təşkil olunmur, nəticədə xoşagəlməz hadisələr baş verir. Ona görə də belə bir təşəbbüs var ki, bu cür ziyarətlər də QMİ-nin himayəsi altında həyata keçirilsin. Bu məsələnin üzərində iş gedir. Bununla əlaqədar "Dini etiqad azadlığı haqqında" Qanuna müəyyən dəyişikliklərin edilməsi ilə bağlı təkliflər də var. Həmin təkliflərə baxıldıqdan sonra Həcc ziyarəti ilə yanaşı, İslama aid digər müqəddəs yerlərə də ziyarətlərin təşkili xüsusi qaydalar əsasında baş tutacaq. Vətəndaşların bu müqəddəs yerlərə ziyarəti vahid qaydalar əsasında həyata keçirilmiş olacaq. Milli Məclis tərəfindən həmin təkliflərə baxılıb qəbul edildikdən sonra dediyimiz çərçivədə həll edilməsi imkanı yaranacaq.

**– Azərbaycanın işğal altında olan ərazisi Şuşa şəhərindəki Şuşa məscidi İran şirkətləri tərəfindən təmir edilir. Komitə tərəfindən bununla bağlı hər hansı addımlar atılıbmı?**

- Azərbaycanın işğal olunmuş ərazilərində erməni təcavüzkarları vandallıq edirlər, çoxlu sayda tarixi, mədəni abidəmizi dağıdırlar. Məscidlərimiz uçurulub, digər abidələrimiz erməniləşdirilir. Belə abidələrin sayı minlərlədir. İşğalçı Ermənistan maskalanmaq üçün Şuşadakı məscidi bərpa edərək onu özünün təcavüzkar siyasətində bir vasitə kimi istifadə etmək istəyir. Mətbuatda da belə bir məlumatlar var ki, İranın hansısa şirkəti həmin məscidin təmir işləri ilə məşğul olur. Biz bu məlumatları öz səlahiyyətlərimiz çərçivəsində İranın Azərbaycanda olan nümayəndələri, xüsusilə İran Mədəniyyət Mərkəzinin rəhbərliyi ilə müzakirə etmişik. Təbii ki, bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) də öz səlahiyyətlərinə uyğun olaraq ardıcıl işlər aparır. Ümumiyyətlə, XİN işğal olunmuş ərazilərdə qeyri-qanuni iqtisadi, mədəni və digər xarakterli fəaliyyətin qarşısını almaq üçün lazımi addımlar atır. Məhz Azərbaycan tərəfi bu addımlar nəticəsində işğal olunmuş ərazilərimizdə bir sıra şirkətin fəaliyyətinin dayandırılmasına nail olub.

Qeyd edim ki, İran tərəfinin rəsmiləri orada nəzarətlərində olan hər hansı rəsmi şirkətin fəaliyyət göstərmədiyini və məscidin bərpasında iştirak etmədiyini bildirib. Beynəlxalq hüquq, həm də dövlətlərarası razılaşmalar tələb edir ki, Azərbaycanın işğal olunmuş ərazilərində heç bir iqtisadi və mədəni xarakterli tədbirlər, fəaliyyət həyata keçirilməsin. Dünyada işğal olunmuş ərazilərə yatırımların qoyulması doğru sayılmır. Hesab edirəm ki, budəfəki məscid məsələsi də erməni hiyləgərliyinin növbəti formasıdır.

**– Azərbaycanda pirlərə nəzarət olunurmu? Bu yaxınlarda "qaloş piri" məsələsinin ortaya çıxması bu məsələnin nə qədər aktual olmasını gündəmə gətirdi...**

– Bu mövzu mütəmadi olaraq gündəmə gətirilir. Azərbaycan əhalisinin əksəriyyəti İslam dininə sitayiş edir və çoxlu ziyarətgah var ki, həmin ziyarətgahlar da tarixən formalaşıb. İnsanların belə yerlərə inancları var və onun qarşısını süni yolla almaq olmaz. Ölkəmizdə elə ziyarətgahlar var ki, onların tərkibində rəsmi şəkildə fəaliyyət göstərən məscidlər var.

Təəssüflər olsun ki, tarixi ziyarətgahlarla yanaşı, yeni-yeni pirlər və ocaqlar peyda olur. Əksər halda belə yerlərdə xurafat və mövhumat elementləri özünü büruzə verir. Belə yerlərin fəaliyyətinin qarşısı qanunvericiliyə uyğun olaraq alınır. Lakin düşünürük ki, ölkə əhalisinin dini biliklər artdıqca tarixi kökü olmayan pir və ziyarətgahlara üz tutanların sayı azalacaq. Buna görə də bizim maarifçilik fəaliyyətimizin bir qismi bu istiqamətə yönəlib.

**– Cəmiyyət tərəfindən hər zaman nəzir qutuları ilə bağlı məsələlər müzakirə olunur. Buna nəzarət edilirmi?**

– Ziyarətgahların idarəçiliyinə nəzarəti əsasən QMİ həyata keçirir. Ziyarətgahlarda, o cümlədən bəzi məscidlərdə nəzir qutuları var. Nəzirlər ona görə verilir ki, İslamda yardımlaşma, köməkləşmə dəyərləri mövcuddur. Həmin vəsaitlər də məscidin xətti ilə insanlara, müraciət edənlərə, dini bayramlarda və s. köməklik məqsədilə sərf edilir. Bəzən bu yardımları bir o qədər də geniş açıqlamırlar. Elə ziyarətgahlar var ki, insanlar hər ay oradan ərzaq aparır, maddi dəstək alır. Həmin ziyarətgahlarda yığılan vəsaitlərin xərclənməsinə nəzarət QMİ-nin səlahiyyətindədir. Bununla bağlı onların xüsusi komissiyası da var. Vəsaitin xərclənməsi məsələsinə isə dövlət müdaxilə etmir.

Bu məsələlər mərkəzləşmiş qaydada deyil, əsasən, ziyarətgahın yerləşdiyi ərazidə həyata keçirilir. Vaxtaşırı mətbuatda da açıqlamalar olur ki, böyük ziyarətgahlar xeyriyyə tədbirləri keçirir, yardımlar edir. Bəzən ziyarətgahlarda bu məlumatların yayılmamasını dinin özü ilə izah edirlər. Yəni, dinimizə görə edilən yardımlar deyilməməlidir. Amma mənə elə gəlir ki, belə məlumatların zaman-zaman açıqlanması doğru olardı. Mən əminəm ki, ziyarətlərdə inanclı insanlar olduğuna görə oradan toplanan vəsaitin paylanmasında da ədalətli mövqe sərgiləyirlər.

**– Mübariz müəllim, gələcəkdə İlahiyyat İnstitutuna qəbulla bağlı hər hansı bir yeniliklər nəzərdə tutulurmu?**

– Hazırda İlahiyyat İnstitutuna qəbul aparılır, rəhbərlik bununla bağlı ətraflı açıqlamalar verir. İnstitutda ödənişsiz təhsil həyata keçirilir. Bu il 72 nəfərin İlahiyyat İnstitutuna qəbul edilməsi nəzərdə tutulur. İlahiyyat İnstitutuna həm Rusiyanın tərkibindəki respublikalar, o cümlədən Gürcüstan, Orta Asiya, Türkiyə və digər ölkələrdən də tələbələrin qəbul olunması düşünülür.

Bu cür ideyalar var. Burada da əsas məqsəd odur ki, İlahiyyat İnstitutu bölgənin əsas mərkəzinə çevrilsin. Digər tərəfdən yaxın gələcəkdə İlahiyyat İnstitutunda digər dinlər üzrə də kadr hazırlığı nəzərdə tutulur ki, az sayda olsa da, Yəhudilik, Xristianlığın katolik və pravoslav qolu ilə bağlı kadrlar hazırlansın.

**– Bəs yaxın gələcəkdə Azərbaycanda yeni dini kolleclər açıla bilərmi?**

– Azərbaycanda dini kolleclərin açılmasına dövlət səviyyəsində razılıq verilib. 10 İslam kolleci dövlət qeydiyyatına alınıb. Həmin kolleclərin maddi-texniki bazası və digər məsələlərlə bağlı işlər gedir. Bizdə olan məlumata görə, Qafqaz Müsəlmanları İdarəsi bir neçə bölgədə dini kolleclərin açılması ilə bağlı hazırlıq işlərini həyata keçirir. Nardaranda, Lənkəranda, Gəncədə, Quba-Xaçmaz bölgəsində dini kolleclərin açılması istiqamətində hazırlıq işləri görülür. Proses yekunlaşdıqdan sonra bu bölgələrdə kolleclərin açılması nəzərdə tutulub.

**– İmamların attestasiyası və maddi təminatı ilə bağlı hansı yeniliklər gözlənilir?**

– Hazırda Bakıda 136 məscid var. Onların fəaliyyətdə olanlarının böyük əksəriyyəti dövlətdən maddi dəstək alır. Bu maddi dəstəyi o məscidlərdə iki və ya daha artıq adam alır ki, həmin məscidlərdə vəhdət namazları qılınır və ya ibadətə gələnlər daha çoxdur. Əksər məscidlərdə maddi dəstəyi bir nəfər alır. Ümumiyyətlə, məscidlərdə din xadimlərinə maddi dəstək verilən zaman həmin şəxsin üzərinə düşən məsuliyyət və fəaliyyəti nəzərə alınır. QMİ tərəfindən təyinat almış imam, imam müavini və mütəvəllilər Mənəvi Dəyərlərin Təbliği Fondunun xətti ilə maddi dəstək alır.

O cümlədən məscidlərin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün Prezident İlham Əliyev sərəncamlar verir. Həmçinin Heydər Əliyev Fondunun Prezidenti, Birinci Vitse-Prezident Mehriban xanım Əliyeva bu sahədə xeyli iş görüb. Bu gün təhlükəsizlik məsələləri ilə əlaqədar olaraq məscidlərin əksəriyyəti kamera sistemi ilə təchiz edilib, eyni zamanda, böyük icmalara avtomobillər verilib. Bütün bunlar da vətəndaşlarımıza xidmət edir.

**– Nazirlər Kabineti tərəfindən təsdiqlənən "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nın tələblərinə nə dərəcədə riayət olunur? Qəbir yerləri ilə bağlı normalar gözlənilirmi?**

– Bu qaydaların tətbiqi ilə bağlı işlər gedir. Burada Komitənin bir funksiyası var. O da həmin məzarlıqların reyestrini aparmaq. Məzarlıqların idarə olunması tam şəkildə yerli bələdiyyələrə verilib. Həmin qaydaların tətbiqinə başlanıldıqda isə əminəm ki, yeni məzarlıqlar salınacaq, hazırkı məzarlıqlar da öz işlərini bu qaydalar əsasında quracaqlar.

**– Azərbaycanda yas mərasimləri öz israfçılığı və təmtərağı ilə seçilir. Bununla bağlı hər hansı bir tənzimlənməyə ehtiyac var?**

– Yas mərasimlərinin təşkili vətəndaşa bağlıdır. Vətəndaş seçimini özü etməlidir. Burada başqa vasitəyə əl atmağa ehtiyac yoxdur. Bu, ənənədən irəli gəlir. Mən yas mərasimlərində çox çeşiddə yeməklərin verilməsinin tərəfdarı deyiləm. Biz öz məclislərimizdə çay süfrəsi ilə kifayətlənmişik. Belə qaydaları da tətbiq edən yerlər çoxalmaqdadır. Məsələn, Şəmkir rayonunun bir kəndində atası vəfat etmiş şəxs həmin yas mərasiminə xərcləyəcəyi vəsaiti yol çəkməyə sərf edib. Bu cür nümunələr kifayət qədərdir. Əvvəllər də bu cür nümunələr olub. Kimlərsə ehsan olaraq bulaq tikdirib, yol çəkdirib, ağac əkib və s. Özü də həmin məkanlar qeyri-rəsmi formada o adamın adı ilə adlandırılıb.

QMİ-nin də yas mərasimlərində dəbdəbəli süfrələrin olmaması ilə bağlı tövsiyələri var. Biz sadəcə tövsiyələr və izahlar verə bilərik. Dini nöqteyi-nəzərdən ehsan xeyir əməldir. Adam var, deyir ki, vəfat edən yaxınının ehsanında yemək versə, daha yaxşıdır, adam da var deyir ki, bunu bir xeyirxah işlə yerinə yetirir. Hesab edirəm ki, yas mərasimlərinin təşkili vətəndaşa bağlıdır. İnsanlar öz aralarında razılığa gəlməklə bu məsələni həll edə bilərlər.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) iyulun 8-də ABŞ-ın Kaliforniya ştatında yerləşən Sinay sinaqoqunun üzvlərindən ibarət nümayəndə heyəti ilə görüş keçirilib.

DQİDK-nın sədri Mübariz Qurbanlı ölkədəki dini durum haqqında ətraflı məlumat verib, tolerantlığın və multikulturalizmin ölkəmizdə çox möhkəm təməl sütunlarının, zəngin tarixi ənənələrinin olduğunu qeyd edib. M.Qurbanlı bildirib ki, burada bütün din mənsubları qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşayırlar. Dini konfessiyaların hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunduğunu vurğulayan Komitə sədri bildirib ki, ölkədə məscidlərlə yanaşı kilsələr və sinaqoqlar da dövlət tərəfindən təmir və bərpa edilir, yeniləri inşa olunur. Hər il dövlət başçısı tərəfindən dini konfessiyaların fəaliyyətlərinin dəstəklənməsi məqsədilə maddi vəsait ayrılır.

M.Qurbanlı bildirib ki, məhz bu ənənələrin daha geniş təbliği üçün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2016-cı il ölkəmizdə "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilib və bu illər çərçivəsində DQİDK və Qafqaz Müsəlmanları İdarəsi həm müsəlman, həm də qeyri-müsəlman ölkələrində bir sıra birgə tədbirlər həyata keçirib. DQİDK sədri xüsusilə bu istiqamətdə Heydər Əliyev Fondunun həyata keçirdiyi çoxşaxəli və geniş proqramlardan söz açıb. Qeyd edib ki, bu proses xüsusi olaraq yaradılan Dinlər və Mədəniyyətlərarası Əməkdaşlıq Mərkəzi tərəfindən davam etdirilir.

Görüş zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında danışan Komitə sədri qeyd edib ki, bu münaqişə nəticəsində Ermənistan Azərbaycan torpaqlarını işğal edib, yüz minlərlə azərbaycanlını etnik təmizləməyə, dini zəmində zorakılığa məruz qoyub, tarixi-dini abidələri məhv edib. Azərbaycan həqiqətlərinin ABŞ ictimaiyyətinə çatdırılmasında Sinay sinaqoqunun üzvlərinin iştirak etdiklərini vurğulayan M.Qurbanlı qarşılıqlı əlaqələrin genişlənməsindən məmnun olduğunu ifadə edib.

Nümayəndə heyətinin üzvü Yomtovian Aysak Azərbaycan haqqında geniş məlumata malik olduğunu, multikultural və tolerant mühitin bütün ölkə ərazisində yüksək səviyyədə hökm sürdüyünü, müxtəlif mədəniyyət və dinlərin nümayəndələrinin, etnik azlıqların qarşılıqlı hörmət şəraitində yaşadıqlarını bildirib. Sinay sinaqoqunun üzvlərinin dəfələrlə Azərbaycana səfər etdiklərini xatırladan Yomtovian Aysak onların Azərbaycandan çox yüksək təəssüratla geri döndüklərini bildirib, müxtəlifliyin geniş yayıldığı bir dünyada millətlərin və dinlərin birgə yaşamasını təşviq edən Azərbaycan modelinin öz unikallığı ilə seçildiyini vurğulayıb. Azərbaycanın tolerantlıq və multikulturalizmin təşviqi istiqamətində oynadığı nümunəvi rolu xüsusi vurğulayaraq, Azərbaycanla qurulmuş sıx dostluq əlaqələrinə önəm verdiklərini bildirib. Eyni zamanda, ölkəmizdə müxtəlif dinlərin və xalqların dinc birgəyaşayışının, eləcə də uzun əsrlərdən bəri Azərbaycanda mövcud olan yəhudi icmasına göstərilən diqqət və qayğının yüksək səviyyədə olmasının böyük rəğbətlə qarşılandığını vurğulayıb.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyulun 9-da Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Li Litzenberger ilə görüşüb.

Səfirə diplomatik fəaliyyəti dövründə uğurlar arzulayan Dövlət Komitəsinin sədri ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri, tolerantlıq mühiti, rəhbərlik etdiyi qurumun həyata keçirdiyi işlər barədə danışıb. Bütün dünya tərəfindən başlıca demokratik dəyərlərdən biri kimi təbliğ olunan tolerantlıq və multikulturalizmin Azərbaycan xalqının əsrlər boyu formalaşan və çoxları üçün örnək sayılan xarakterik xüsusiyyətləri olduğuna diqqət çəkib. Sədr müstəqilliyimizi bərpa etdikdən sonra ölkəmizdəki dini dözümlülük, tolerantlıq mühiti və mədəniyyətinin Ümummilli Liderimiz Heydər Əliyevin formalaşdırdığı dövlət-din siyasətinə uyğun olaraq daha da möhkəmləndiyini və bu sahədə dövlət siyasətinin prioritet istiqamətinə çevrildiyini deyib. M.Qurbanlı Prezident İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsinə xüsusi diqqət ayırmasından, dövlət səviyyəsində tolerantlıq və multikultural dəyərlərin qorunmasından da söz açıb.



Azərbaycanda dini etiqad azadlığının qanunla təsbit edildiyini diqqətə çatdıran Mübariz Qurbanlı ölkəmizdə zərərli dini ideyalar yaymayan, dinlərarası münasibətlərə xələl gətirəcək şəkildə fəaliyyət göstərməyən bütün dini icmalara zəruri şəraitin yaradıldığını, eləcə də onlara dövlətimiz tərəfindən maddi və mənəvi dəstək göstərildiyini bildirib.

O, formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi istiqamətində görülən işlər sayəsində respublikamızda 14 kilsə, 7 sinaqoqun fəaliyyət göstərdiyini, mütəmadi olaraq müxtəlif dinlərə məxsus ibadətgahların inşa və bərpa edildiyini, dini icmalara maliyyə yardımlarının ayrıldığını diqqətə çatdırıb.

Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Li Litzenberger Azərbaycanda mövcud olan dinlərarası harmoniyanın, qarşılıqlı etimad mühitinin, bu sahədə əldə edilən nailiyyətlərin artıq etiraf edilən həqiqət olduğunu bildirib.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyulun 23-də Argentina və Uruqvay respublikalarından olan jurnalistlər Xalid Hallar və Susana Manqananı qəbul edib.

Dövlət Komitəsinin sədri jurnalistlərə ölkəmizdə mövcud olan dini durum və DQİDK-nın fəaliyyəti barədə ətraflı məlumat verib. Azərbaycanda 942 dini qurumun dövlət qeydiyyatına alındığını bildirən M.Qurbanlı onlardan 907-nin İslam, 35-nin isə qeyri-islam təmayüllü olduğunu bildirib. Azərbaycan əhalisinin əksər hissəsinin müsəlman olduğunu qeyd edən Komitə sədri ölkəmizdə müxtəlif dini konfessiyaların əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini deyib. Diqqətə çatdırıb ki, ölkəmizdə dini konfessiya nümayəndələrinin hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını qoruyub-saxlamaq imkanına malikdir. Dini konfessiyaların fəaliyyəti barədə geniş məlumat verən M.Qurbanlı ölkəmizdə dövlət tərəfindən bütün dini qurumlara, o cümlədən qeyri-islam icmalarına mütəmadi maliyyə yardımı edildiyini vurğulayıb.

Dövlət Komitəsinin sədri jurnalistlərin ölkəmizin nümunəvi dini tolerantlıq modeli, beynəlxalq ictimaiyyət tərəfindən maraqla qarşılanan vəhdət namazı və radikalizmin qarşısının alınması istiqamətində görülən işlər barədə suallarını cavablandırıb.

Səmimi qəbula görə təşəkkürlərini bildirən jurnalistlər ölkəmizə səfərləri müddətində Azərbaycanın dinamik inkişafının, yüksək səviyyəli multikultural mühitin mövcudluğunun şahidi olduqlarını deyiblər.



Qeyd edək ki, görüşdə Argentinanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunella da iştirak edib.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyulun 24-də Küveyt Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Səud Əbdüləziz Məhəmməd əl-Şəmlan əl-Rumi ilə görüşüb.

Qonağı səmimiyyətlə salamlayan Komitə sədri Azərbaycan və Küveyt arasında dostluq, qardaşlıq əlaqələrinin tarixindən, diplomatik münasibətlərin hazırkı durumundan söz açıb. O bildirib ki, bu gün İslam dünyası beynəlxalq aləmdə özünəməxsus yer tutur, İslam ölkələri İslam Əməkdaşlıq Təşkilatında birləşirlər. İki ölkənin uğurla inkişaf edən münasibətlərinə toxunan Mübariz Qurbanlı vurğulayıb ki, Azərbaycanla Küveyt üzvü olduqları İƏT çərçivəsində və ikitərəfli istiqamətdə yüksək səviyyədə əməkdaşlıq edirlər.

M.Qurbanlı, həmçinin dövlət başçısı İlham Əliyevin 2009-cu ildə böyük nümayəndə heyəti ilə Küveytə səfərinin iki ölkə arasında əlaqələrin inkişafına böyük töhfə verdiyini diqqətə çatdırıb.

Küveyt və Azərbaycanın dost ölkələr olduğunu və əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini qeyd edən səfir Səud Əbdüləziz Məhəmməd əl-Şəmlan əl-Rumi qeyd edib ki, qardaş ölkə olaraq Küveyt hər zaman Azərbaycanın mənafeyini müdafiə edib. O bildirib ki, Küveyt dövləti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəni və dini irsin talan və məhv edilməsi siyasətinə qarşı hər zaman ədalətli çağırışlar edib və Azərbaycanın haqq səsini beynəlxalq aləmdə yüksək səviyyədə müdafiə edib.



Səfir qeyd edib ki, ötən illər ərzində ölkələrimiz arasında müxtəlif səviyyələrdə ikitərəfli əlaqələr möhkəmləndirilib, o cümlədən hava əlaqəsi haqqında hökumətlərarası saziş imzalanıb. Bu da ölkələrimizin iqtisadi, ticarət, investisiya qoyuluşu və turizm sahələrində səmərəli əməkdaşlığının daha da möhkəmlənməsinə öz töhfəsini verməkdədir. Səfir ötən il 30 mindən çox Küveyt vətəndaşının ölkəmizə turist səfəri etdiyini deyib.

Qarşılıqlı hörmət və səmimiyyət şəraitində keçən görüşün sonunda səfir səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirib.

Qeyd edək ki, keçirilən görüşlərin sonunda qonaqlara DQİDK tərəfindən ingilis və ərəb dillərində çap olunmuş ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında kitablar təqdim edilib.

# "MÜASİR ÇAĞIRIŞLAR: DİNİ DURUM VƏ VƏZİFƏLƏR"



Bu gün Azərbaycanda dövlət-din münasibətlərinin mövcud səviyyəsi ən yaxşı model kimi qiymətləndirilir. Prezident İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısı nəticəsində ölkəmizdə dövlət-din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Dövlət dini qurumlar və dini icmalar arasında münasibətlərin sağlam əməkdaşlıq və tolerantlıq əsasında qurulması işinə yardım edir. Azərbaycanda dünyaya nümunə ola biləcək tolerantlıq mövcuddur və müxtəlif dinlərin nümayəndələri azad şəraitdə yaşayırlar.

Bu fikirlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Qax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə iyulun 25-də Qax şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda konfransda səsləndirilib.

Dövlət Komitəsinin və rayon icra hakimiyyətinin rəhbər şəxslərinin, yerli hüquq-mühafizə orqanlarının rəhbərlərinin, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri konfransda ölkəmizdə dini sahəyə, milli-mənəvi dəyərlərimizə göstərilən diqqət və qayğıdan, dini sabitliyin qorunub saxlanılması sahəsində görülməsi vacib olan məsələlərdən geniş bəhs olunub.

Konfransın əvvəlində azərbaycançılıq ideologiyasına həsr olunan sənədli film nümayiş etdirilib.

Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev konfransda çıxış edərək, rayondakı mövcud dini durum barədə məlumat verib. Bildirib ki, Qax rayonu Azərbaycanda müxtəlif xalqların, icmaların birgə yaşadığı ən nümunəvi bölgələrdən biridir. Ölkənin hər yerində yaşanan dinamik inkişaf Qax rayonunun simasında da aydın müşahidə olunur. Diqqətə çatdırıb ki, hazırda rayonda 11-i müsəlman, 2-si qeyri-müsəlman olmaqla, 13 dini icma Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınıb. Dini icmalarla qarşılıqlı münasibətlərin formalaşması nəticəsində rayonda dini durum sabitdir, dini etiqad azadlığının təmin olunması, milli-mənəvi dəyərlərin qorunub saxlanması üçün davamlı tədbirlər həyata keçirilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural prinsiplərin təşviqi, dini maarifçilik işinin aparılması, dini radikalizmlə mübarizə sahəsində görülən işlər barədə danışıb.

Müasir dünyanın özünəməxsus çağırışları olduğunu diqqətə çatdıran Mübariz Qurbanlı bildirib ki, həmin çağırışlarla bağlı BMT dünyanın 20-dək problemini müəyyən edib. Onların içərisində demoqrafiya, ekologiya, nüvə müharibəsi təhlükəsi, iqlim dəyişkənliyi ilə bağlı və digər problemlər ön sıralarda yer alır.

Çağdaş dünya üçün ən ciddi təhdidlərdən birinin terror və ekstremizm olduğunu bildirən Komitə sədri dünyanın bir çox ölkələrində din amilindən istifadənin vətəndaş müharibələrinə, terror hadisələrinə, eyni dinə etiqad edən insanlar arasında qarşılıqlı nifrətə gətirib çıxardığını deyib. Diqqətə çatdırıb ki, hazırda dinlər və sivilizasiyalar arasında toqquşmalar XX əsrdə soyuq müharibə illərindəki ideoloji toqquşmanı əvəz edib.

Bildirilib ki, heç bir din radikallığa çağırış edə bilməz. Həm İslamın, həm də Xristianlığın və Yəhudiliyin müqəddəs kitablarında insanlar birliyə, sülhə, əmin-amanlığa çağırılır. Amma bu gün dünyada din adı altında terror aktları törədilir, qarşıdurmalar yaradılır. İnsanların din adı ilə bir-birini qırması, terror törətməsi cəhalətin nəticəsidir.

Ölkəmizdəki dövlət-din münasibətlərinin zəngin milli-tarixi ənənəyə əsaslandığını deyən Komitə sədri dövlətimizin din siyasətinin əsas məqsədinin dini etiqad azadlığının təmin edilməsi, dünyəvi dövlətçilik prinsiplərinin qorunub saxlanılması və dini təəssübkeşliyin dini təkəbbürə, sonra fanatizm və ekstremizmə çevrilməsinin qarşısının alınması olduğunu vurğulayıb. İnsanları birliyə, vəhdətə çağıran dinlərin mahiyyətindən uzaqlaşdırılaraq kimlərinsə əlində radikal, ekstremist, xurafat, antimilli formaya çevrilməsinin yolverilməz olduğunu bildirən Mübariz Qurbanlı bu kimi xoşagəlməz halların qarşısının alınması istiqamətində bütün bölgələrdə kompleks tədbirlərin həyata keçirildiyini söyləyib.

Konfransın sonunda Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Hacı Əsgərov çıxış edərək, regionlarda keçirilən bu cür konfransların gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunmasında xüsusi rola malik olduğunu bildirib.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda keçirilən regional konfrans iyulun 29-da "Dini radikalizmlə mübarizə və maarifləndirmə" adlı panel iclasla öz işini davam etdirib.

Tədbiri giriş sözü ilə açan Qax RİH başçısının birinci müavini Tahir İsmayılov Prezident İlham Əliyevin dinə və dindarlara diqqət və qayğısından bəhs edib. Tahir İsmayılov, eyni zamanda rayondakı dini durum barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov Azərbaycanın dünyaya zəngin multikulturalizm modelini təqdim etdiyini bildirib. Sədr müavininin sözlərinə görə, tarixən müxtəlif etno-mədəni qrupların və dini konfessiyaların birgə yaşadığı ölkəmizdə multikulturalizm siyasətinin banisi Ulu Öndər Heydər Əliyevdir. Ümummilli Liderin bu siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Dini radikalizmin mahiyyəti və onunla mübarizə yolları barədə də məlumat verən G.İsmayılov vurğulayıb ki, bu kimi tədbirlərin keçirilməsində əsas məqsəd dini radikalizmlə mübarizə sahəsində maarifləndirmə işinin aparılmasından ibarətdir. Sədr müavini ölkədəki dini durum, dini icmaların fəaliyyəti, dövlətin dinə qayğısı və tolerantlıq siyasəti barədə danışaraq qeyd edib ki, dövlət-din münasibətləri qanunvericiliklə tənzimlənir.

O, radikal dini qrupların və qeyri-ənənəvi təriqətlərin zərərli təbliğatının qarşısının alınması, onlara qarşı effektiv mübarizə aparılması, dini maarifçilik işinin düzgün metodlarla təşkili məsələlərinə də toxunub. G. İsmayılov deyib ki, dini radikalizmlə mübarizənin gücləndirilməsi və milli-mənəvi dəyərlərin qorunub saxlanılması məqsədilə dini maarifləndirmə işinin aparılması zəruridir.

DQİDK sədrinin müavini bildirib ki, hansısa cəmiyyətdə təhsil və dini biliklər paralel şəkildə insanlara çatdırılmırsa, xurafatın yayılması qaçılmazdır. Onun sözlərinə görə, yad dini ideologiyaların təsiri altına düşənlərin dini bilgilərinin zəif olması ehtimalı böyükdür. Bu baxımdan, gənclərə dinlər haqqında ümumi məlumatların verilməsi, müqəddəs kitabların mahiyyətinin izah edilməsi olduqca vacibdir.

Sədr müavini onu da vurğulayıb ki, dinimizin əsas məqsədlərindən biri də cəmiyyət, dövlət və ailə üçün faydalı olan, həmrəylik naminə toplumun ayrılmaz hissəsinə çevrilən nümunəvi vətəndaş formalaşdırmaqdır.

Təqdimatla çıxış edən DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov isə dinin cəmiyyətdəki funksiyaları barədə danışıb. R.Əsgərov, eyni zamanda cəmiyyətimiz üçün real təhlükə olan dini fanatizm, dini radikalizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları barədə məlumat verib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ QAXDA VƏTƏNDAŞLARLA GÖRÜŞÜB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

İyulun 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qaxda vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri və Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla anıblar.

Qax şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən qəbulda vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib.

Vətəndaşlar sakinlərin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



# MİLLİ MƏTBUAT GÜNÜNƏ HƏSR OLUNMUŞ "DİN VƏ MEDİA" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə iyulun 23-də Bakıda Milli Mətbuat Gününə həsr olunmuş “Din və media” mövzusunda konfrans keçirilib.

Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan Mətbuat Şurasının rəhbərliyi, Milli Məclisin deputatları, media təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Komitə sədri Mübariz Qurbanlı iyulun 23-də Ağdamın Ermənistan silahlı qüvvələri tərəfindən işğalından 26 il ötdüyünü xatırladaraq bildirib ki, düşmən qüvvələri digər rayonlarımızda olduğu kimi, Ağdamda da bütün tarixi, dini abidələri məhv edib, 17 məscidi tamamilə dağıdıb. Daha sonra Ağdamda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.




Milli Mətbuatın yaranma və inkişaf tarixinə nəzər salan M.Qurbanlı bildirib ki, ümummilli lider Heydər Əliyev kütləvi informasiya vasitələrinin nümayəndələrinə hər zaman xüsusi diqqət və qayğı göstərib. O, hazırda Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin ölkə mətbuatının daha da inkişafı məqsədilə həyata keçirdiyi tədbirlərdən söz açıb. Qeyd edib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, mətbuat sahəsində də inkişaf və tərəqqi əldə edilib.

Komitə sədri dini radikal qruplara qarşı ideoloji sahədə mübarizənin gücləndirilməsində, dini xurafata qarşı təbliğatda medianın önəminə də toxunub. Bildirib ki, ölkədə ictimai-siyasi sabitliyin qorunmasında hüquq-mühafizə orqanları ilə yanaşı, kütləvi informasiya vasitələrinin də rolu çox önəmlidir. Mediada milli maraqlar məsələsində həmrəyliyi görürük, bu da vacib məsələlərdən biridir. M.Qurbanlı qeyd edib ki, Azərbaycan dini tolerantlıq, multikultural dəyərlərin qorunması baxımından nümunəvi bir ölkədir, amma bəzi qrup və dairələr xaricdə sosial şəbəkələr vasitəsilə yanlış məlumatlar yaymağa cəhd edirlər. Bunun qarşısını almaq üçün bizim qrupumuz fəaliyyət göstərir və bu cür informasiyalar olduqda bunların yanlış olması barədə ictimaiyyət məlumatlandırılır.

Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşov Azərbaycan xalqının və cəmiyyətinin həyatında mətbuatın çox böyük rol oynadığını deyib. O qeyd edib ki, Azərbaycan mətbuatı hər zaman milli və dini dəyərlərə hörmətlə yanaşıb. Azərbaycan mətbuatı nəinki İslam dininə, bütün dinlərə hörmətlə yanaşır və bu sahədə üzərinə düşən missiyanı layiqincə yerinə yetirir.

Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov Milli Mətbuat Günü münasibətilə Şeyxülislam Allahşükür Paşazadənin təbriklərini çatdırıb. O bildirib ki, QMİ bu cür tədbirlərin keçirilməsində maraqlıdır, çünki qurum olaraq əsas nizamnamə vəzifələrindən biri də İslam dininin təbliğ olunmasıdır. Bu baxımdan, KİV-in müstəsna rolunun olduğunu bildirən Simran Həsənov vaxtaşırı düzgün, əsaslandırılmış, İslamın humanitar ideyalarına uyğun məlumatların cəmiyyətə ötürülməsini yüksək qiymətləndirib. Aparat rəhbəri İslam dinində sözə, qələmə verilən yüksək dəyəri Quran-i Kərim surəsi ilə əsaslandırıb. O bildirib ki, QMİ öz fəaliyyət sahəsində KİV ilə işgüzar əlaqələr qurur və mətbuatın köməyi ilə üzərinə düşən əsas vəzifələrin icrasını yüksək səviyyədə həyata keçirməyə çalışır.

“Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu Prezident İlham Əliyevin mətbuata, jurnalistlərə göstərdiyi diqqət və qayğıdan söz açıb. O bildirib ki, Milli Mətbuat Günü münasibətilə dövlət başçısının Azərbaycanda nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı göstərmək üçün Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna bir milyon manat vəsait ayırması jurnalistlərin əməyinin yüksək qiymətləndirilməsinin sübutudur.

Daha sonra çıxış edən “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə dini radikalizmə qarşı mübarizə, milli-mənəvi, o cümlədən dini dəyərlərin, multikultural və tolerant ənənələrin qorunması və təbliği istiqamətində mətbuatın üzərinə düşən vəzifələr barədə danışıblar.

Tədbirin sonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Mətbuat Şurasının Milli Mətbuat Günü münasibətilə yerli kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında elan etdikləri “Din və media” mövzusunda yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb.

# DÖVLƏT KOMİTƏSİNİN RƏHBƏRLİYİ ZAQATALA VƏ BALAKƏNDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq iyulun 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Zaqatala, sədr müavini Gündüz İsmayılov isə Balakən rayonunda vətəndaşları qəbul ediblər.

Qəbullarda vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Qəbula gələn vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində konkret tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



# QEYDİYYATDAN KEÇƏN DİNİ İCMALARA ŞƏHADƏTNAMƏLƏR VERİLİB



İyulun 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) yeni qeydiyyatdan keçmiş Bakı şəhəri “Şərqdə Ulduz” Xristian dini icması və Bakı şəhəri “Yevangelist Xristian Baptistlərin Kilsəsi” dini icmasına şəhadətnamələr təqdim edilib.

Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə sağlam təməllər üzərində əsasını qoyduğu dövlət-din münasibətləri bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Sədr müavini vurğulayıb ki, dövlət siyasətinə çevrilmiş tolerantlıq və multikulturalizm ölkəmizi dünyaya ən müasir və mütərəqqi cəmiyyət modeli kimi təqdim edir. Onun sözlərinə görə, dövlətimiz tərəfindən mütəmadi olaraq dini konfessiyalara maddi və mənəvi dəstək göstərilir, müxtəlif etnik qrupların öz dillərini, mədəni dəyərlərini qoruyub saxlamaları, dini inanclarını rahat şəkildə yerinə yetirə bilmələri üçün lazımi şərait yaradılır. S.Heydərov dini icmalara fəaliyyətlərini qanunvericiliyə uyğun qurmalarını və konfessiyalar arasındakı mövcud anlayış və harmoniyaya öz töhfələrini verməyi tövsiyə edib.



Sonda qeydiyyat şəhadətnamələri dini icma sədrlərinə təqdim edilib.

# SƏYAVUŞ HEYDƏROV "GREATER GREACE BALTİMOR" KİLSƏSİNİN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞÜB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov iyulun 18-də ABŞ-dakı “Greater Greace Baltimor” kilsəsinin ağsaqqal pastorlarından biri, “Greace hours” radio proqramının rəhbəri Con Love ilə görüşüb.

Görüşdə S.Heydərov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda vətəndaşların etiqad azadlığı haqqının təmin edilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər barədə danışıb. Ölkəmizdəki dinlərarası və millətlərarası harmoniyanın dünya üçün tolerantlıq nümunəsi olduğunu diqqətə çatdıran sədr müavini vurğulayıb ki, respublikamızdakı bütün dini icmalara zəruri şərait yaradılıb, eləcə də onlara dövlətimiz tərəfindən maddi və mənəvi dəstək göstərilir. Sədr müavini bildirib ki, Azərbaycandakı multikultural və birgəyaşayış modeli artıq dünyada nümunə kimi qəbul edilir.



C.Love isə öz növbəsində bildirib ki, Azərbaycan multikulturalizm dəyərlərinin dünyada təbliği istiqamətində müxtəlif layihələr həyata keçirir. O, bu baxımdan respublikamızın dünya ölkələri üçün bir örnək olduğunu deyib. Con Love Azərbaycandakı fərqli dinlərin nümayəndələrinin qədim zamanlardan birgə yaşamalarının sevindirici hal olduğunu diqqətə çatdırıb.

Tərəfləri maraqlandıran bir sıra digər məsələlərin də müzakirə olunduğu görüşün sonunda qonaqlara Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə maddi-mənəvi irsimizə qarşı törədilən vandalizmdən bəhs edən kitablar təqdim olunub.

# HACIQABULDA YERLƏŞƏN "N" SAYLI HƏRBİ HİSSƏDƏ MAARİFLƏNDİRMƏ TƏDBİRİ KEÇİRİLİB



İyulun 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ilə Daxili Qoşunların Baş İdarəsi arasında təsdiqlənmiş Tədbirlər Planına əsasən daxili qoşunların Hacıqabul rayonunda yerləşən “N” saylı hərbi hissəsində zabit və əsgərlərlə görüş keçirilib.

Tədbiri giriş sözü ilə açan hərbi hissə komandiri mövzunun əhəmiyyətindən danışıb. Natiq bu cür maarifləndirmə tədbirlərinin keçirilməsinin milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural ənənələrimizin təşviqi, vətəndaşlarımızın, xüsusilə gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, o cümlədən din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması baxımından böyük əhəmiyyətə malik olduğunu bildirib.

Görüşdə çıxış edən Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov dünyada gərginliyin artmasına və qanlı toqquşmaların baş verməsinə baxmayaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ictimai-siyasi və dini sabitliyin mövcud olduğunu vurğulayıb.

Sədr müavini dini radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları barədə ətraflı məlumat verib. Səyavuş Heydərov vurğulayıb ki, dini radikalizmlə mübarizənin effektivliyinin artırılması üçün maarifləndirmə, preventiv və profilaktik xarakterli tədbirlərə üstünlük verilir. Dövlət Komitəsinin sədr müavini onu da bildirib ki, DQİDK bu istiqamətdə digər dövlət qurumları, eləcə də hüquq mühafizə orqanları ilə koordinasiyalı şəkildə tədbirlər həyata keçirir.

Milli təhlükəsizliyimizə əsas təhdidlərdən biri olan dini radikalizmin fəsadlarından da bəhs edən Səyavuş Heydərov bildirib ki, bəzi qrupların din adı altında xüsusən gənclərimizi çirkin məqsədlərinə alət etməsinə və Azərbaycan gənclərinin bu məqsədlərə qurban getməsinə heç bir vəchlə imkan vermək olmaz. DQİDK sədrinin müavini onu da qeyd edib ki, İslam dininin siyasiləşdirilməsi cəhdləri onun terror və müharibədə qorxulu silaha çevrilməsinə səbəb ola bilər. İslamın sağlam təməllərinin əsas götürülməsinin önəminə toxunan sədr müavini bunun sayəsində bir çox problemli məsələlərin asanlıqla öz həllini tapa biləcəyini deyib.

Sonda zabit və əsgərlərin sualları cavablandırılıb.



# "DİN VƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİK"



**SABİRABADDA**

İyulun 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Sabirabad Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Din və ideoloji təhlükəsizlik" mövzusunda regional seminar-müşavirə keçirilib.

Seminar-müşavirədə DQİDK-nın rəhbərliyi, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin, Sabirabad, Şirvan, Hacıqabul, Saatlı rayonlarının icra və hüquq-mühafizə orqanlarının səlahiyyətli nümayəndələri, Respublika Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbər şəxsləri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub. Sonra seminar-müşavirədə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 50-ci ildönümü münasibətilə DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi əsasında hazırlanmış "Heydər Əliyev və azərbaycançılıq" adlı sənədli film nümayiş edilib.

Tədbiri giriş sözü ilə açan Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov nümayiş edilən filmlə bağlı təəssüratlarını paylaşaraq Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəldiyi dövrdə xalqımız naminə atdığı uğurlu və cəsarətli addımlardan söz açıb.

Seminar-müşavirənin aktual mövzuya həsr edildiyini bildirən icra başçısı dini radikalizmin cəmiyyətdə yaratdığı fəsadlardan, ona rəvac verən təhdidlərin qarşısının alınmasının vacibliyindən danışıb. Eyni zamanda, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dini mühitdə cərəyan edən neqativ tendensiyaların qarşısının alınması, radikalizmlə mübarizənin effektivliyinin artırılması məqsədilə həyata keçirdiyi tədbirlərin önəminə toxunan icra başçısı bu sahədə maarifləndirmə işlərinin davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov Ulu Öndərin siyasi hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə nümayiş edilən filmlə bağlı fikirlərini bölüşərək bildirib ki, hələ sovet hakimiyyəti illərində Heydər Əliyev çətin siyasi vəziyyətdə milli kimliyimizin, soykökümüzün, tariximizin qorunması, milli-mənəvi dəyərlərimizin yaşadılması uğrunda yorulmadan mübarizə aparıb, azərbaycançılıq ideologiyasının əsasını qoyub.

O bildirib ki, əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan və hazırda ölkəmizdə formalaşmış dövlət-din münasibətləri dünyaya nümunədir. Respublikamızda vicdan azadlığı yüksək səviyyədə təmin edilməklə, bütün dinlərə bərabərhüquqlu münasibət göstərilməkdədir.

İslam dininin sülh dini olduğunu bildirən Dövlət Komitəsi sədrinin müavini təəssüflə qeyd edib ki, bəzi qüvvələr öz maraqlarını həyata keçirmək üçün İslam dinindən, din amilindən istifadə edirlər. Son dövrlərdə dünyada, o cümlədən Yaxın Şərqdə gedən proseslərdə, baş verən qarşıdurmalar və müharibələrdə din amili daha qabarıq şəkildə özünü büruzə verir. Səyavuş Heydərov təəssüflə bildirib ki, bəzi dairələr tərəfindən ölkəmizə qarşı dini zəmində yönəlmiş təhdidləri nəzərə alsaq, biz də bu neqativ proseslərdən sığortalanmamışıq. Buna görə də o, respublikamızda ictimai-siyasi sabitliyin qorunması, eləcə də dini radikalizm və ekstremizmlə mübarizə sahəsində hər kəsi fəal olmağa çağırıb. DQİDK-nın sədr müavini onu da deyib ki, bütün bu cəhdlərin qarşısı qətiyyətlə alınır və bundan sonra da alınacaq.

Ölkədə dini radikalizm meyillərinin qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərdən danışan S.Heydərov radikal dini qrupların və qeyri-ənənəvi təriqətlərin zərərli təbliğatının qarşısının alınması, onlara qarşı effektiv mübarizə aparılması, dini maarifçilik işinin düzgün metodlarla təşkili məsələlərindən də bəhs edib. O, həmçinin xurafatın, dini savadsızlığın yaratdığı və yarada biləcəyi fəsadlardan, eyni zamanda, bunların qarşısının alınması yollarından söz açıb.

Daha sonra Daxili İşlər Nazirliyinin əməkdaşı Oqtay Tağıyev, Qafqaz Müsəlmanları İdarəsinin Sabirabad rayonu üzrə səlahiyyətli nümayəndəsi Ağakərim Sadıqov çıxışlarında milli təhlükəsizliyə əsas təhdidlər, dini radikalizmə qarşı mübarizənin hüquqi əsasları, eləcə də bu istiqamətdə aparılan maarifləndirmə tədbirlərinin önəmindən danışıblar.

Seminar-müşavirə mövzu ətrafında müzakirələrlə işini yekunlaşdırıb.

**UCARDA**

Bu qəbildən olan növbəti regional seminar-müşavirə iyulun 29-da DQİDK və Ucar RİH-in birgə təşkilatçılığı ilə keçirilib.

Tədbirdə Ucar, Zərdab, Göyçay və Kürdəmir rayonlarının icra hakimiyyətlərinin, Daxili İşlər və Ədliyyə nazirliklərinin, Respublika Baş Prokurorluğunun, Dövlət Təhlükəsizliyi Xidmətinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yerli strukturlarının rəhbərləri iştirak ediblər.




Seminar-müşavirədən öncə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə çiçəklər qoyulub.

Tədbirdə Azərbaycanın müstəqilliyi, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub, DQİDK-nın sifarişi ilə çəkilən "Şəhadət" sənədli filmindən fraqmentlər nümayiş etdirilib.

Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov çıxış edərək mövzunun aktuallığından danışıb, bugünkü narahat dünyamızda dini və ideoloji təhlükəsizliyin önəmli olduğunu vurğulayıb. O, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dini mühitdə cərəyan edən mənfi tendensiyaların qarşısının alınması, radikalizmlə mübarizənin səmərəliliyinin artırılması məqsədilə həyata keçirdiyi tədbirlərin önəminə toxunaraq, bu sahədəki maarifləndirmə işlərinin davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət idarəçiliyi və xalqımızın milli maraqlarına uyğun müstəqil siyasət prinsipləri günümüzdə daha da təkmilləşmiş formada tətbiq edilir. Sədr müavini ölkəmizdəki dinlərarası və millətlərarası harmoniyanın dünya üçün tolerantlıq nümunəsi olduğunu diqqətə çatdıraraq, bu dəyərlərin qorunmasının Prezident İlham Əliyevin və birinci vitse-prezident Mehriban Əliyevanın daim diqqətində olduğunu bildirib.

O vurğulayıb ki, Azərbaycan güclü dünyəvi dövlət prinsipləri ilə yanaşı, dini-mənəvi dəyərləri qoruyan və islamofobiya amilinə qarşı ciddi mübarizə aparan ölkədir. Respublikada milli-mənəvi dəyərlərimizə söykənən və sağlam dini təməllər üzərində formalaşdırılmış nümunəvi dövlət-din modeli mövcuddur. DQİDK-nın sədr müavini qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən uzaqgörənliklə həyata keçirilən, balanslı, qarşılıqlı maraqlara söykənərək reallaşdırılan, milli və dövlətçilik ənənələrimizin də qətiyyətlə müdafiə edildiyi siyasi kurs Azərbaycanı inkişaf etdirməklə yanaşı, həm də ölkəmizi sivilizasiyalararası mədəniyyətin və multimədəni harmoniyanın təminatçısı kimi tanıdıb.

Sədr müavini qeyd edib ki, dövlətimiz islamofobiyaya qarşı qətiyyətli və güclü mübarizə aparır. Dünyada müharibələrin gücləndiyi dövrdə Azərbaycanın belə siyasət ortaya qoyması bəzi dairələrin maraqlarına zidiyyət təşkil edir. O, ölkəmizdə dini durumun sabit olduğunu, hüquq-mühafizə və təhlükəsizlik orqanlarının yorulmaz fəaliyyəti nəticəsində sabitlik və əmin-amanlığın yüksək səviyyədə təmin edildiyini deyib. Müharibə şəraitində olan ölkə üçün milli təhlükəsizlik, dini-ideoloji sabitliyin prioritet məsələ olduğunu qeyd edən sədr müavini mövcud təhlükə və təhdidlərin qarşısının alınması üçün sistemli və geniş formada maarifləndirmə tədbirlərinin keçirildiyini bildirib.

Respublika Baş Prokurorluğunun idarə rəisinin müavini İldırım Vəliyev və Daxili İşlər Nazirliyinin məsul işçisi Oktay Tağıyev çıxış edərək, dini radikal və ekstremist fəaliyyətin ictimai təhlükəsizliyə açıq təhdid olduğunu, ona qarşı müştərək mübarizənin vacibliyini vurğulayıblar. Dini radikalizm və ekstremizmə qarşı mübarizə və bu sahədə qanunların tələblərinə riayət edilməsi istiqamətində görülən tədbirlərdən bəhs edilib. Bildirilib ki, Azərbaycanda dövlət-din münasibətləri sağlam şəkildə qurulub, ictimai-siyasi sabitlik və əmin-amanlıq hökm sürür. Ölkəmizdə bütün dünyaya nümunə ola biləcək dövlət-din münasibətləri, tolerantlıq, multikulturalizm, birgəyaşayış ənənəsi formalaşıb. Bu qaydaları pozan hər bir şəxs qanunamüvafiq qaydada cəzalanır və cəzalanacaq.

Qafqaz Müsəlmanları İdarəsinin region üzrə qazısı Əli Məmmədov çıxışında insanların dini və mənəvi-əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirindən qorunmasında din xadimlərinin üzərinə mühüm vəzifə düşdüyünü qeyd edib. Həmçinin dini radikalizmlə mübarizədə maarifçilik işinin təşkilinə xüsusi önəm verilməsinin vacibliyini diqqətə çatdırıb.

Regional seminar-müşavirədə dini və ideoloji təhlükəsizlik sahəsində hər bir valideynin, müəllimin, ziyalının, din xadiminin, kollektiv rəhbərinin diqqətli olmasının zəruriliyi bildirilib.

# "DİNİ QURUMLAR VƏ MÜASİR İNFORMASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ"




Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı, müxtəlif dinə mənsub icmaların nümayəndələrinin iştirakı ilə iyulun 18-də "Dini qurumlar və müasir informasiya texnologiyalarından istifadə" mövzusunda konfrans keçirilib.

Konfransı giriş sözü ilə açan Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov qloballaşan dünyada, informasiya texnologiyalarından istifadənin bütün sahələrdə geniş vüsət aldığı bir dövrdə dini qurumların da bu tendensiyaya qoşulmasının əhəmiyyətindən və vacibliyindən danışıb. O bildirib ki, müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə dini icmalar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatının aparılması prosesi başda olmaqla bütün digər müraciətlərini elektron formada daha tez və rahat şəkildə həyata keçirə bilərlər.

Daha sonra Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova "Dini qurumlar və müasir informasiya texnologiyaları" mövzusunda təqdimatla çıxış edib. E.Kərimova internet texnologiyalarının dini sahədə yaratdığı imkanlardan və problemlərdən söz açaraq bildirib ki, bu gün internetdən, sosial şəbəkələrdən istifadənin insan həyatında əhəmiyyəti artdıqca, bu imkanlardan sui-istifadə halları da artır. Sosial şəbəkələr, internet insanların həyatında artıq sosial reallıqdır və orada baş verənlər qarşısıalınmaz prosesə çevrilib. O vurğulayıb ki, radikal dini qruplaşmalar, dindən siyasi məqsədləri üçün istifadə edən qeyri-qanuni birliklər öz mənfur ideyalarının, fikirlərinin təbliğatında internet resurslarından və sosial şəbəkələrin imkanlarından geniş istifadə edirlər. Bütün bu mənfi halların qarşısının alınması məqsədilə dini qurumların və dini icma nümayəndələrinin öhdəsinə mühüm vəzifə düşdüyünü deyən Komitə rəsmisi sözügedən halların qarşısının alınması üçün onları internet resurslarından istifadə etməklə ideoloji mübarizə aparmağa səsləyib.



DQİDK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva "İnnovativ məhsul və xidmətlər" mövzusunda təqdimatla çıxış edərək Dövlət Komitəsinin göstərdiyi elektron xidmətlər barədə geniş məlumat verib. O bildirib ki, Dövlət Komitəsi göstərdiyi elektron xidmətlərin təşkili və ondan səmərəli istifadənin təmin edilməsi üçün mütəmadi olaraq zəruri tədbirlər görür, bu sahədə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə yaxından əməkdaşlıq edir. Y.Əliyeva DKnın fəaliyyəti ilə bağlı məlumatlara əlçatanlığın artırılması, fəaliyyətində şəffaflığın təmin edilməsi, vətəndaş iştirakçılığının genişləndirilməsi, dövlət idarəedilməsində yüksək peşə etikasının tətbiqi, eləcə də Dövlət Komitəsinin hesabatlı və açıq olması üçün yeni nəsil texnologiyalarının tətbiq olması barədə məlumat verib.

O vurğulayıb ki, Komitənin "www.scwra.gov.az" rəsmi saytının "qaynar xətt" bölməsinə, "Jivochat" onlayn müraciət proqramına, rəsmi elektron poçt ünvanına və sosial şəbəkələrdəki səhifələrinə daxil olan onlarla müraciət operativ formada cavablandırılır, vətəndaşların qısa zamanda müvafiq məsələlərlə bağlı məlumat və cavab almaları təmin edilir. Bütün bu xidmətlər dini qurumların Dövlət Komitəsinə etdiyi ayrı-ayrı müraciətlərə baxılması prosesində də tətbiq edilir ki, bu da zaman itkisinin qarşısını alır və daha effektiv nəticələrə gətirib çıxarır.

Daha sonra DQİDK-nın Hüquq və qeydiyyat şöbəsinin sektor müdiri Aqşin Əliyev "Açıq Hökumət prinsiplərinin təşkili və korrupsiya ilə mübarizə istiqamətləri" mövzusunda çıxış edib. O, çıxışında Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planında nəzərdə tutulan müddəalar, dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətinin açıq hökumət prinsiplərinə uyğunlaşdırılması, qərarların qəbulu prosesində ictimaiyyətin iştirakının genişləndirilməsi və şəffaflığın artırılması, Azərbaycan Respublikasının bu sahədə götürdüyü beynəlxalq öhdəliklər, eləcə də korrupsiyanın qarşısının alınması sahəsində tədbirlər və qanunvericiliyin təkmilləşdirilməsi mövzularına yer verib.

Konfrans işini iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşdırıb.

# QISA-QISA

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Cari ay ərzində bu qəbildən olan tədbirlər:***

**5 iyul** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayon Qarayevkənd kənd məscidi dini icmasında "Dini radikalizmə qarşı mübarizə yolları və milli-mənəvi dəyərlərimizin qorunması" mövzusunda;

**8 iyul** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin Sabirabad rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Milli-Mənəvi dəyərlərimizin təbliğində dini icmaların rolu" mövzusunda;

**10 iyul** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, Xızı Rayon İcra Hakimiyyəti və Xızı rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Narkomaniya əsrin bəlasıdır" mövzusunda;

**11 iyul** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Dövlət Təhlükəsizliyi Xidmətinin Mingəçevir şəhər İdarəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizmə və ekstremizmə "yox" deyək!" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən Rayon İcra Hakimiyyəti və Balakən Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizm milli-mənəvi dəyərlərə təhlükə mənbəyi kimi" mövzusunda;

**12 iyul** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayon Qara Nuru kənd "Cümə" məscidində "Dini radikalizm milli-mənəvi dəyərlərə və milli kimliyimizə təhdiddir" mövzusunda;

**17 iyul** – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Xəzər rayonu Binə qəsəbəsində;

**19 iyul** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayonu Fətəlikənd kəndi "Cümə" məscidi dini icmasının iştirakı ilə "Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda;

**25 iyul** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlər, narkomaniya və erkən nikah" mövzusunda;

**26 iyul** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sabirabad rayonu Bulaqlı kənd məscidi dini icmasında "Dini radikalizmə qarşı mübarizədə məzhəblərarası vəhdətin rolu" mövzusunda baş tutub.

Tədbirlərdə çıxış edən natiqlər müxtəlif dini cərəyanların yaranma tarixindən, zərərli dini qrupların təbliğat metodlarından bəhs ediblər. Qeyd olunub ki, gənclərin belə radikal qrupların təsirinə düşməməsi üçün maarifləndirmə tədbirləri mütəmadi həyata keçirilir. Həmçinin bildirilib ki, milli-mənəvi, tolerant və multikultural dəyərlərimizin qorunması istiqamətində dövlət tərəfindən mühüm addımlar atılmaqdadır. Çıxışlarda dini radikalizmi yaradan səbəblərdən, onun müasir dövrdəki təzahürlərindən söz açılıb. Vurğulanıb ki, bu mövzuda cəmiyyətlə aparılan ictimai müzakirələr radikalizm və terrorizmə qarşı mübarizədə öz müsbət təsirini göstərir. Çıxışçılar bu cür tədbirlərin Azərbaycan gəncliyinin öz qədim tarixi irsinə, milli-mənəvi dəyərlərinə sadiq qalmalarına, vətənə məhəbbət, torpağa sədaqət ruhunda tərbiyə olunmalarına kömək etdiyini bildiriblər. Vurğulanıb ki, gənclərimizin düzgün istiqamətləndirilməsində, onların sağlam düşüncəli vətəndaş kimi yetişməsində dini icmaların və din xadimlərinin üzərinə böyük məsuliyyət düşür. Qeyd olunub ki, məhz görülən bu işlər nəticəsində gənc nəsildə Vətənə məhəbbət hissi daha da artmaqla yanaşı, qeyri-ənənəvi dini təriqətlərə maraq azalıb.

Tədbirlərdə DQİDK-nın sifarişi ilə hazırlanmış "Şəhadət" sənədli filmi nümayiş etdirilib və film ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# «DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ: NECƏ? NƏ ETMƏLİ?»



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə iyulun 29-da rayonun Girdəni kəndində "Dini radikalizmlə mübarizə: necə? nə etməli?" mövzusunda seminar-treninq keçirilib.

Seminar-treninqdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə, Dövlət Komitəsini Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov, Lənkəran ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Asif İmanlı, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzinin rəhbəri Ziya İsmayılov, dindarlar, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Lənkəran ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Asif İmanlı çıxışında tədbirin əhəmiyyətindən danışıb. Dini radikalizmə qarşı mübarizə məqsədilə Dövlət Komitəsi tərəfindən keçirilən dini maarifləndirmə tədbirlərinin önəminə toxunub. Natiq bildirib ki, dini radikalizm müasir dövrün ən böyük bəlalarındandır.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri dini radikalizm, yaranma səbəbləri və ona qarşı aparılan mübarizə tədbirləri haqqında tədbir iştirakçılarını məlumatlandırıb. O qeyd edib ki, dini radikalizmlə mübarizənin əsas istiqamətlərindən biri düzgün maarifləndirmədir. Cahandar Əlifzadə təəssüflə vurğulayıb ki, hazırda dini radikalizmə ən çox gənclər məruz qalırlar. Şöbə müdiri gənclərin dini radikal qrupların təsiri altına düşməmələri üçün təhsilin və sağlam həyat tərzinin əhəmiyyətini diqqətə çatdırıb. O bildirib ki, gəncləri dini radikal qrupların təsirindən uzaq tutmaq üçün onlara doğun məlumat vermək, həmçinin İslam dinini düzgün şəkildə, olduğu kimi çatdırmaq lazımdır.

Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov çıxışında dini radikalizmə qarşı mübarizə məqsədilə keçirilən tədbirlər və görülən işlərin vacibliyinə diqqət çəkib.

İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzinin Rəhbəri Ziya İsmayılov, Girdəni kənd məscidinin İmamı Adil Əskərov çıxışlarında mövzunun aktuallığı ilə bağlı fikirlərini bildiriblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# "DİNİ MAARİFÇİLİYİN TƏŞKİLİNDƏ QADINLARIN YERİ VƏ ROLU"



Xaçmaz şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Xaçmaz Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə iyulun 16-17-də "Dini maarifçiliyin təşkilində qadınların yeri və rolu" mövzusunda regional konfrans keçirilib.

Rayonun idarə və təşkilatlarında, təhsil, səhiyyə, mədəniyyət müəssisələrində çalışan qadınlar, eyni zamanda ictimaiyyət nümayəndələrinin iştirak etdiyi konfransı giriş sözü ilə Xaçmaz Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Yaqut Məsimova açıb. O bildirib ki, ölkəmizdə yüksək səviyyədə mövcud olan dövlət-din münasibətləri, dinlər və məzhəblər arasında qarşılıqlı anlaşma mühiti uğurlu dövlət siyasətinin nəticəsidir. Y.Məsimova Prezident İlham Əliyev tərəfindən daim dini sahəyə böyük diqqət və qayğı göstərildiyini, dini ibadətgahların təmir olunduğunu, yenilərinin tikildiyini, dini konfessiyalara maddi dəstək verildiyini deyib. RİH rəsmisi çıxışında, eyni zamanda dini radikalizmlə mübarizə istiqamətində həyata keçirilən maarifləndirmə işinin əhəmiyyətinə toxunub.

Daha sonra Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova "Dini maarifçilik işində qadınlar" adlı təqdimatla çıxış edib. Şöbə müdiri dini maarifçiliyin təşkili, onun əhəmiyyəti və bu işdə qadınların rolu haqqında geniş məlumat verib. O, ölkəmizdə dini radikalizm və ekstremizmə qarşı səmərəli mübarizənin aparılması məqsədilə müxtəlif formatlarda keçirilən silsilə tədbirlərin önəmindən danışıb. Elnarə Kərimova vurğulayıb ki, ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılması daim diqqət mərkəzindədir. Şöbə müdirinin sözlərinə görə, müxtəlif dinlərin yayıldığı Azərbaycanda bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşıb, milli, irqi və dini zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmayıb.

Tədbir iştirakçılarına sosial şəbəkələrdə radikal dini qrupların apardığı dini təbliğatın məqsədi, metodları barədə ətraflı məlumat verən Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva dini radikalizmin ən geniş yayılmış təbliğat platformasının məhz sosial şəbəkələr olduğunu bildirib. Vurğulayıb ki, dini radikal qruplar bütün vasitələrdən istifadə edərək öz zərərli fikirlərini yaymaq, cəmiyyətdə insanlar arasında dini və məzhəb ayrı-seçkiliyi yaratmağa cəhd edirlər. Yaqut Əliyeva sosial şəbəkələrdə məzhəblərarası və konfessiyalararası münasibətlərə ciddi zərbə vuracaq təhrikedici materialların sayının gündən-günə artdığını qeyd edib. Şöbə müdiri deyib ki, bu risklərdən qorunmaq üçün məktəblilərin, yeniyetmələrin sosial şəbəkələrdən istifadəsinə ciddi nəzarət edilməlidir. O, dini maarifləndirmə işinin əhəmiyyəti və bu prosesdə qadınların rolunun vacibliyi barədə də məlumat verib.

DQİDK-nın əməkdaşı Aysel Abdullayeva cəmiyyətimiz üçün ciddi təhdid olan xurafata zəmin yaradan amillər və onun səbəb olduğu fəsadlar mövzusunda təqdimatla çıxış edib. Xurafatla mübarizədə təhsilin əsas vasitə olduğu bildirən A.Abdullayeva bu istiqamətdə dini maarifləndirmə işinin önəmini vurğulayıb, Azərbaycanın maarifçi qadınlarından, onların fəaliyyətlərindən söhbət açıb.

İkigünlük regional konfrans müzakirələrlə öz işini yekunlaşdırıb.

# DİNİ RADİKALİZM VƏ EKSTREMİZMİN TƏBLİĞİNDƏ ŞÜBHƏLİ BİLİNƏN 180 DİNİ ƏDƏBİYYAT AŞKARLANIB

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti ilə birgə Bakı şəhəri Suraxanı rayonu Qaraçuxur qəsəbəsi məscidi ətrafında reyd keçirib. Reyd zamanı vətəndaş Kamran Hüseynzadə tərəfindən küçə ticarəti formatında dini təyinatlı ədəbiyyatın qeyri-qanuni satışı faktı aşkarlanıb.

İlkin baxış və araşdırma zamanı müvafiq icazəsi olmadan satılan, dini radikalizm və ekstremizmin təbliğində şübhəli bilinən 180 dini ədəbiyyat ekspertiza üçün götürülüb. Fakt üzrə müvafiq araşdırma tədbirləri davam etdirilir.

Qeyd edək ki, monitorinqin keçirilməsində məqsəd dini təyinatlı ədəbiyyatların və məmulatların satışı ilə məşğul olan məntəqələrin fəaliyyətinin, həmin ədəbiyyatların istehsal və satışı, eləcə də onların nəzarət markası ilə markalanması ilə bağlı qanunvericiliyin tələblərinə riayət olunub-olunmamasının müəyyənləşdirilməsindən ibarət olub.

# "MÜASİR CƏMİYYƏT VƏ DİN" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

"SOCAR Karbamid" Məhdud Məsuliyyətli Cəmiyyəti və Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə Sumqayıt şəhərində yerləşən "SOCAR Karbamid" zavodunun əməkdaşları üçün "Müasir cəmiyyət və din" mövzusunda seminar keçirilib.

Əvvəlcə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə hazırlanmış "Şəhadət" sənədli filmi nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan "SOCAR Karbamid" MMC-nin direktoru Xəyal Cəfərov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə əməkdaşlıq edildiyini və bu mövzuda keçirilən tədbirlərin vacibliyini diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov qeyd edib ki, din tarixin bütün dövrlərində cəmiyyətlərin əxlaqi-mənəvi dəyərlər sisteminin ayrılmaz bir hissəsini təşkil etmişdir. Din insanlar tərəfindən doğru dərk edilər və aşılanarsa bu dəyərlər sülhün təminatçısına çevrilər. Müasir dövrümüzdə ayrı-ayrı dinlərin mənsublarına dözümlülük nümayiş etdirmək nəinki çox yüksək mənəvi dəyər, eləcə də demokratik rejimin zəruri göstəricisi kimi qəbul edilməkdədir. Azərbaycan da tolerantlığın, multikulturalizmin, birgəyaşayış ənənələrinin mövcud olduğu ölkədir. Bu gün cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir, həll olunur. Cəmiyyətimizin, ölkəmizin dayanıqlı inkişafı üçün dövlət-din münasibətlərinin çox böyük əhəmiyyəti var.

Tədbir diskussiya şəklində davam edib.

# CƏMİYYƏT və DİN

№ 07 (336) / İYUL 2019-cu il


## KİTABA ABİDƏ QOYULDU

Özbəkistanın Karşi Dövlət Universitetinin qarşısında kitaba abidə qoyulub. Bununla bağlı keçirilən mərasimdə kitabın gənc nəslin tərbiyəsindəki müstəsna əhəmiyyətindən danışılıb.

Monumentdə böyük özbək şairləri Əlişir Nəvai, Zahirəddin Məhəmməd Babur, Abdulla Aripov, həmçinin Əbu Əli ibn Sina, Şərəf Rəşidov, o cümlədən dünya ədəbiyyatının tanınmış nümayəndələri Balzak, Şekspir və Puşkinin simvolik kitabları əks olunub.




## AVROPANIN ƏN YAXŞI ADALARI MƏLUM OLDU

ABŞ-ın "Travel and leisure" nüfuzlu səyahət jurnalının oxucuları arasında aparılan sorğuya əsasən Yunanıstanın "Milos" adası "2019-cu ildə Avropanın ən yaxşı adaları" nominasiyasında birinci yeri qazanıb.

Bundan əlavə, yunan adaları Avropanın 15 ən yaxşı adaları siyahısına da daxil edilib. Belə ki, Krit adası 2-ci, Paros 4-cü, Santorini 5-ci yerləri qazanaraq Yunanıstanı bu nominasiyada birinci edib. Eyni zamanda, bu dörd ada dünyada ən yaxşı adalar siyahısında da (Milos dördüncü, Krit yeddinci, Paros on birinci, Santorini on dördüncü) yer alıb.



## NİDERLANDDA KİLSƏLƏRİN BEŞDƏBİRİ MƏQSƏDİNƏ UYĞUN İSTİFADƏ OLUNMUR

Hollandiyadakı hər beşinci kilsə artıq ilkin məqsədi üçün istifadə olunmur. Yeni şəkilə salınmış kilsələrin əksəriyyəti sosial və mədəni məqsədlər daşıyır. "Trouw" qəzeti xəbər verir ki, statistikaya görə, bu gün ölkədəki 6900 kilsədən 1400-dən çoxu ikinci məqsədə xidmət edir. Köhnə, xüsusilə 1800-1970-ci illər arasında tikilmiş kilsə binaları hazırda ictimai mərkəz, muzey və ya teatr kimi istifadə olunur.

"Trouw"-un məlumatına görə, 4600 kilsə binasının hər beşinin artıq digər funksiyaları var. Onların üçdəbiri yaşayış binaları və yaşayış komplekslərinə çevrilib, 20 faizi mədəni və sosial funksiya yerinə yetirir, 15 faizi isə ofis kimi istifadə olunacaq.

### Yadigar söz

**Bernard Şou**
*(irland dramaturqu)*

***İnsan üç halda ölər: tənbəllikdən, inancsızlıqdan və həyata dəyər verməyi bacarmadıqda.***

## Bakı və Abşeron üzrə namaz vaxtları (Avqust - 2019)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:02 | 05:37 | 12:47 | 17:48 | 20:11 | 21:24 |
| 2 | 04:03 | 05:38 | 12:47 | 17:48 | 20:10 | 21:23 |
| 3 | 04:04 | 05:39 | 12:47 | 17:47 | 20:09 | 21:21 |
| 4 | 04:06 | 05:40 | 12:47 | 17:46 | 20:08 | 21:20 |
| 5 | 04:07 | 05:41 | 12:46 | 17:46 | 20:07 | 21:18 |
| 6 | 04:09 | 05:42 | 12:46 | 17:45 | 20:06 | 21:17 |
| 7 | 04:10 | 05:43 | 12:46 | 17:44 | 20:04 | 21:15 |
| 8 | 04:11 | 05:44 | 12:46 | 17:43 | 20:03 | 21:13 |
| 9 | 04:13 | 05:45 | 12:46 | 17:43 | 20:02 | 21:12 |
| 10 | 04:14 | 05:46 | 12:46 | 17:42 | 20:00 | 21:10 |
| 11 | 04:15 | 05:47 | 12:46 | 17:41 | 19:59 | 21:09 |
| 12 | 04:17 | 05:48 | 12:46 | 17:40 | 19:58 | 21:07 |
| 13 | 04:18 | 05:49 | 12:45 | 17:39 | 19:56 | 21:05 |
| 14 | 04:19 | 05:50 | 12:45 | 17:38 | 19:55 | 21:04 |
| 15 | 04:21 | 05:51 | 12:45 | 17:37 | 19:54 | 21:02 |
| 16 | 04:22 | 05:52 | 12:45 | 17:36 | 19:52 | 21:00 |
| 17 | 04:23 | 05:53 | 12:45 | 17:36 | 19:51 | 20:59 |
| 18 | 04:25 | 05:54 | 12:44 | 17:35 | 19:49 | 20:57 |
| 19 | 04:26 | 05:55 | 12:44 | 17:34 | 19:48 | 20:55 |
| 20 | 04:27 | 05:56 | 12:44 | 17:33 | 19:46 | 20:53 |
| 21 | 04:29 | 05:57 | 12:44 | 17:31 | 19:45 | 20:52 |
| 22 | 04:30 | 05:58 | 12:43 | 17:30 | 19:43 | 20:50 |
| 23 | 04:31 | 05:59 | 12:43 | 17:29 | 19:42 | 20:48 |
| 24 | 04:33 | 06:00 | 12:43 | 17:28 | 19:40 | 20:46 |
| 25 | 04:34 | 06:00 | 12:43 | 17:27 | 19:39 | 20:44 |
| 26 | 04:35 | 06:01 | 12:42 | 17:26 | 19:37 | 20:43 |
| 27 | 04:36 | 06:02 | 12:42 | 17:25 | 19:36 | 20:41 |
| 28 | 04:38 | 06:03 | 12:42 | 17:24 | 19:34 | 20:39 |
| 29 | 04:39 | 06:04 | 12:41 | 17:23 | 19:33 | 20:37 |
| 30 | 04:40 | 06:05 | 12:41 | 17:21 | 19:31 | 20:35 |
| 31 | 04:41 | 06:06 | 12:41 | 17:20 | 19:29 | 20:34 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## HƏCC ZİYARƏTİNƏ GƏLƏN ZƏVVARLARIN SAYI ÖTƏN İLLƏ MÜQAYİSƏDƏ 11 FAİZ ARTIB

Səudiyyə Ərəbistanın Miqrasiya məsələləri üzrə Baş İdarəsinin yaydığı rəsmi məlumata görə, bu il bütün dünyadan həcc ziyarətinə hava, dəniz və quru yolla gələn zəvvarların sayı hazırda 1084762 nəfərə çatıb.

Bu il ziyarətə hava nəqliyyatı ilə gəlmiş zəvvarların sayı 1020562 nəfər, quru yolla gələnlər 53842 nəfər, dəniz yolu ilə gələnlər isə 10358 nəfər olub.

Bu il zəvvarların ümumi sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 106603 nəfər, yəni 11 faiz çoxalıb.



## İNSANLAR YERİN 2019-CU İLDƏKİ HAVASINI, SUYUNU İSTİFADƏ EDİBLƏR

Bəşəriyyət iyulun 29-da planetin il ərzində hasil edə biləcəyi bərpa olunan resursların "limitini" keçib. Bu barədə "Global Footprint Network" analitik mərkəzinin məruzəsində deyilir.

Tədqiqatçıların hesablamalarına görə, hazırda Yer əhalisi su, torpaq və təmiz havanı onların bərpa oluna biləcəyindən 1,75 dəfə tez istifadə edir.

Mütəxəssislər qeyd edirlər ki, 2019-cu ildə resursların "illik həcmi"nin tam istifadəsi 20 il əvvəl ilə müqayisədə təqribən iki ay tez başlayıb.

Analitiklər onu da bildiriblər ki, hamı Rusiyada yaşasaydı, əhalinin tələbatını qarşılamaq üçün ildə 3,2 planet lazım idi. Avstraliyada bu göstərici 4,1, ABŞ-da 5, Hindistanda isə 0,7 planetə bərabərdir.


**Baş redaktor**
**Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894